

Milli azadlıqdan
şirin nemət yoxdur!


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

11 avqust
2026-cı il,
çərşənbə axşamı
№ 141 (7208)
Qiymətı
60 qəpik


# Bakı-Vaşinqton əlaqələri: tərəfdaşlıq, sülh və sabitlik uğrunda birgə fəaliyyət...



➪ Bax səh. 2

# Müharibənin qalibi və sülhün təminatçısı

➪ Bax səh. 3

## Müstəmləkəçiliyin davam edən izləri...

9 Avqust - Beynəlxalq Yerli Xalqlar Günü yalnız yerli xalqların mədəniyyət və irsini qeyd edən tarix deyil, həm də müstəmləkəçiliyin yaratdığı tarixi ədalətsizlikləri və onun bu gün də davam edən ağır nəticələrini xatırladan mühüm gündür. Fransa və Niderland kimi müstəmləkəçi dövlətlər əsrlər boyu əsarət altında saxladıqları yerli xalqların fundamental hüquqlarını, mədəni və dil kimliklərini bu gün də sistemli şəkildə tapdalamaqda, öz müqəddəratını təyin etmək tələblərini görməzdən gəlməkdə, əhalini zorakı assimilyasiya siyasətinə məruz qoymaqda, sahib olduqları ərazilərin təbii sərvətlərini istismar etməkdə və torpaqlarını mənimsəməkdə davam etməkdədirlər.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Bakı Təşəbbüs Qrupunun (BTQ) Beynəlxalq Yerli Xalqlar Günü ilə bağlı bəyanatında əksini tapıb.

Bəyanatda, həmçinin deyilir: “Avropanın coğrafi məkanında yerləşməsinə baxmayaraq, Korsika xalqı rəsmi Paris tərəfindən hücumlara məruz qalır, yerli Korsika dili sıxışdırılır, müstəqillik tələb edən partiyalara və hərəkatlara qarşı “terror təhlükəsi” adı altında silahlı hücumlar təşkil olunur.

Fransanın uzunmüddətli müstəmləkəçilik siyasəti Maohi Nui (Fransız Polineziyası) ilə birlikdə BMT-nin dekolonizasiya olunmalı ərazilər siyahısında yer alan Kanakinin (Yeni Kaledoniya) əsrlər boyu...

➪ Bax səh. 4



## Cənubi Qafqazın inkişafı üçün...

➪ Bax səh. 4

## BTQ-dən Hindistan hökumətinə çağırış...

➪ Bax səh. 4

## Suriya ilə Rusiya razılaşdı...

➪ Bax səh. 6

## Dünya liderliyi uğrunda mübarizə

➪ Bax səh. 7

## Qlobal iqtisadi əməkdaşlıq və sərmayə cəlbi üçün yeni mərhələ

Prezident İlham Əliyevin imzaladığı müvafiq Sərəncama əsasən, Birinci Azərbaycan Beynəlxalq İnvestisiya Forumunun davamlı beynəlxalq platforma kimi inkişaf etdirilməsi məqsədilə Təşkilat Komitəsi yaradılıb. Komitə İnvestisiya Forumunun uğurlu nəticələrini və formalaşmış əməkdaşlıq əlaqələrini mütəmadi əsasda təşkil edəcək, bu tədbirin qlobal iqtisadi əhəmiyyətinin təşviqi istiqamətində müvafiq işlər görəcək.

Qeyd edək ki, Birinci Azərbaycan Beynəlxalq İnvestisiya Forumu 2025-ci il sentyabrın 22-23 tarixlərində İqtisadiyyat Nazirliyi, İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin (AZPROMO) təşkilatçılığı, Avropa Evi - “Ambrosetti”nin (TEHA) strateji tərəfdaşlığı, həmçinin “Euronews”in media və təşkilati dəstəyi ilə Bakıda keçirilib. Forum dövlət rəsmiləri, biznes liderləri və beynəlxalq investorları bir araya gətirib.

Azərbaycan paytaxtında toplanan beynəlxalq investorlar qrupu Şərq və Qərbin strateji qovşağında yerləşən ölkələrin investisiya imkanlarını araşdırmaq, qlobal ticarətin və dayanıqlı təchizat zəncirlərinin gələcəyini formalaşdırmaq üçün unikal platforma olan Bakı Forumunda mühüm...

➪ Bax səh. 5




## Müharibələr futbola görə başlanmır

➪ Bax səh. 5



## Hörmüz boğazından keçid necə tənzimlənəcək?

➪ Bax səh. 6

# Vilnüsdən zəng...

Avqustun 10-da Litva Respublikasının Baş naziri Mindaugas Sinkeviçyus Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.



Prezidentin Mətbuat Xidmətinin məlumatına görə, telefon söhbəti zamanı son dövrlərdə Azərbaycan ilə Litva arasında əlaqələrin inkişafında müşahidə olunan müsbət dinamika məmnunluqla qeyd edilib. Bu xüsusda, Litva Respublikasının sabiq Baş naziri İnqa Ruqinienenin bu ilin aprelində ölkəmizə səfəri və Prezident İlham Əliyevlə apardığı müzakirələr xatırlanıb.

Dövlətimizin başçısı Mindaugas Sinkeviçyusu Baş nazir vəzifəsinə seçilməsi münasibətilə təbrik edib.

Mindaugas Sinkeviçyus təbriklərə görə təşəkkürünü ifadə edərək, Baş nazir kimi ikitərəfli əlaqələrimizin inkişafını daim diqqətdə saxlayacağını bildirib.

Telefon danışığı əsnasında Azərbaycan ilə Litva arasında enerji sahəsində əməkdaşlıq, xüsusilə enerji təhlükəsizliyinin təmin olunması, ticarət dövriyyəsinin artırılması məsələləri müzakirə olunub.

Litvanın Baş naziri Vaşinqton Sülh Sammiti və orada əldə olunmuş razılaşmaların ildönümü münasibətilə Prezident İlham Əliyevə təbriklərini çatdırıb.

Dövlətimizin başçısı təbriklərə görə təşəkkürünü bildirib.

# İlham Əliyev İran Prezidentinə təşəkkür edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan haqqında söylədiyi xoş və səmimi sözlərə görə İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkiana təşəkkür edib.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Prezidentinin X səhifəsində paylaşım edilib.



Paylaşımda deyilir: "Cənab Prezident Məsud Pezeşkian, Azərbaycan haqqında söylədiyiniz xoş və səmimi sözlərə görə Sizə təşəkkür edirəm. Azərbaycan və İran xalqları dar və çətin günlərdə hər zaman bir-birinin yanında olublar. Bölgəmizdə baş vermiş son hadisələr fonunda Azərbaycanın qardaş İran xalqının yanında olduğu bir daha özünü göstərdi".

# Bakı-Vaşinqton əlaqələri: tərəfdaşlıq, sülh və sabitlik uğrunda birgə fəaliyyət...

## Prezident İlham Əliyev ilə Prezident Donald Tramp arasında telefon danışığı olub

Yeni iqtisadi nizamın aparıcı orta güc dövlətlərindən sayılan Azərbaycan beynəlxalq aləmdə etibarlı tərəfdaş, qlobal sülhə töhfə verən dövlət və regional sabitliyin əsas dayaqlarından biri kimi tanınmaqdadır. İqtisadi potensialın ardıcıl şəkildə gücləndirilməsi, enerji layihələrinin uğurla icrası, nəqliyyat-kommunikasiya dəhlizlərində aparıcı rolun qazanılması və ən əsası müstəqil siyasi kursun qorunması, regionda sabitliyin formalaşdırılması Bakıya beynəlxalq aləmdə xüsusi nüfuz qazandırıb. Azərbaycanın diplomatiyası artıq yalnız regionun deyil, bütövlükdə Avrasiyanın inkişaf və təhlükəsizlik gündəliyində mühüm amil kimi qəbul olunur. Elə buna görədir ki, Azərbaycanla əməkdaşlıq təkcə qonşu dövlətlər üçün deyil, həm də qlobal güclər üçün prioritetə çevrilib. Ötən ilin avqustunda Vaşinqtonda baş tutan üçtərəfli sammit isə sülh reallığının beynəlxalq təsdiqi olmaqla yanaşı, həm də Bakı-Vaşinqton münasibətlərində yeni bir səhifə açdı.

### Sülh sazişinin paraflanması sülhü təsbit edir

Qeyd edək ki, avqustun 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp arasında telefon danışığı olub. Telefon söhbəti zamanı Vaşinqton Zirvə Görüşünün ildönümü münasibətilə məmnunluq ifadə olunub, Vaşinqton sülh zirvəsi və ABŞ Prezidenti Donald Trampın şahidliyi ilə imzalanmış Birgə Bəyannamənin və Azərbaycanla Ermənistan arasında dövlətlərarası münasibətlərin qurulması ilə bağlı sazişin paraflanmasının regionda münaqişəyə son qoyduğu və sülhü təsbit etdiyi vurğulanıb.

Bəli, Azərbaycan müharibədən sonrakı dövrdə də qalib dövlət olmasına baxmayaraq özünün sülhpərvər siyasi ənənəsinə sadiq qaldı - Bakı regionda sabitliyin və davamlı təhlükəsizliyin bərpası üçün qətiyyətli iradə nümayiş etdirdi. Tarix göstərdi ki, Azərbaycan üçün qələbə revanşizm demək deyil - qələbə yeni bir siyasi reallıq, yeni münasibətlər sistemi və yeni inkişaf mühiti formalaşdırmaq imkanıdır. Məhz bu yanaşmanın məntiqi davamı olaraq bölgədə sabitliyin möhkəmləndirilməsinə, dövlətlərarası münasibətlərin normallaşmasına və qarşılıqlı etimada əsaslanan yeni siyasi baxış meydana çıxdı. Yeni sülh şəraiti isə 8 avqust 2025-ci ildə Vaşinqtonda keçirilən yüksək səviyyəli görüşdə özünün siyasi və diplomatik təsdiqini tapdı. ABŞ Prezidenti Donald Trampın şahidliyi ilə sülh sazişi layihəsinin paraflanması regionun gələcəyi baxımından mühüm dönüş nöqtəsi kimi qiymətləndirildi. Bu addım iki ölkə arasında münasibətlərin normallaşması ilə yanaşı, bütövlükdə Cənubi Qafqazda yeni təhlükəsizlik arxitekturasının formalaşması baxımından da mühüm əhəmiyyət daşımış oldu. Uzun illər ərzində formal fəaliyyət göstərən, lakin real nəticə ortaya qoya bilməyən Minsk Qrupunun ləğvi regionda yeni və daha effektiv siyasi yanaşmaların ön plana çıxdığını təsdiqlədi.



Vaşinqton görüşü göstərdi ki, Azərbaycan tərəfindən irəli sürülən sülh təşəbbüsləri artıq beynəlxalq müstəvidə də qəbul edilir və dəstəklənir. Bu, Cənubi Qafqazda formalaşan sülh prosesinin lokal deyil, qlobal miqyasda tanınmasının göstəricisidir. Məhz bu görüş regionun artıq münaqişə zonası kimi deyil, sabitlik və əməkdaşlıq məkanı kimi qəbul olunmağa başlamasının da qlobal təsdiqi kimi yadda qaldı.

### Sülh prosesində liderlərin rolu...

İlham Əliyevin rolunu yüksək qiymətləndirib. Ötən bir il ərzində regionda sülh və sabitliyin təmin olunduğu, bölgədə sülhə xələl gətirə biləcək insidentin olmadığı məmnunluqla vurğulanıb.

Qeyd edildiyi kimi, sülhyaratma prosesinin zirvəsi sayılan Vaşinqton görüşünün reallaşması məsələsində ABŞ-ın Prezidenti Donald Trampın rolu ayrıca vurğulanmalıdır. Hakimiyyətə qayıdışından sonra ötən bir il ərzində Tramp administrasiyası Azərbaycanla münasibətlərə xüsusi önəm verərək Cənubi Qafqazda Bakı tərəfindən formalaşdırılan yeni siyasi reallıqları açıq şəkildə dəstəklədi. Bu yanaşma ABŞ-ın regionda sabitliyə, təhlükəsizliyə və praqmatik əməkdaşlığa verdiyi önəmin göstəricisi kimi dəyərləndirilə bilər. Trampın yanaşması klassik vasitəçilik modelindən fərqlənirdi. Burada əsas prinsip süni balans axtarışı deyil - beynəlxalq hüquq çərçivəsində formalaşmış yeni vəziyyətin qəbul edilməsi və onu yeni imkanlara çevirmə istəyidir. ABŞ-ın Azərbaycanın liderliyi ilə yaranmış regional düzəni dəstəkləməsi sülh prosesinə əlavə legitimlik qazandırdı. Bu dəstək region üçün qurulacaq daha geniş və uzunmüddətli gələcəyin siyasi zəmanəti kimi çıxış edir. ABŞ-Azərbaycan əlaqələrinin güclənməsi isə ayrıca olaraq Cənubi Qafqazı qlobal iqtisadi və nəqliyyat layihələrinin vacib hissəsinə çevirir. Beləliklə, Vaşinqtonun mövqeyi yalnız ikitərəfli münasibətlər kontekstində deyil, bütövlükdə regionun gələcək inkişaf trayektoriyası baxımından strateji əhəmiyyət daşıyır.

Telefon danışığı zamanı dövlətimizin başçısı Vaşinqton sülh zirvə görüşünə ev sahibliyi etməsinə və sülh gündəliyinə verdiyi töhfələrə görə Donald Trampa minnətdarlığını bildirib. Donald Tramp sülh prosesində Prezident

### TRIPP layihəsinin regional bağlantılar baxımından əhəmiyyəti...

yanaşı, region ölkələrinin tranzit və ticarət gəlirlərinin artmasına imkan yaradacaq.

Qitələrarası ticarət dövriyyəsinin 200 milyard dollar artacağı gözləntiləri fonunda Zəngəzur dəhlizi (TRİPP) mühüm nəqliyyat marşrutlarından birinə çevrilə bilər. Yüklərin 10-15 faizinin bu dəhliz vasitəsilə daşınması halında Azərbaycanın yaxın gələcəkdə illik 3 milyard dollara qədər tranzit gəliri əldə etmək potensialı var. 10 illik proqnozlar isə Zəngəzur dəhlizinin (TRİPP) 50 milyard dollar həcmində gəlir formalaşdırmaq və 60 mindən çox yeni iş yerinin yaradılmasına töhfə vermək imkanına malik olduğunu göstərir.

Mütəxəssislər qeyd edirlər ki, Zəngəzur dəhlizinin (TRİPP) həm Şimal-Cənub, həm də Şərq-Qərb nəqliyyat dəhlizlərinə inteqrasiyası onun əhəmiyyətini daha da artıracaq. Bu inteqrasiya Orta Dəhlizin genişlənməsinə şərait yaradacaq və Azərbaycanın beynəlxalq yükdaşımalarından əldə etdiyi gəlirlərin artmasına imkan verəcək.

O ki qaldı, dəhlizin reallaşması istiqamətində gedən işlərə, Azərbaycan tərəfi lazımi infrastrukturun hazırlanması prosesini demək olar ki, yekunlaşdırıb. Zəngəzur dəhlizi (TRİPP) çərçivəsində Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolu demək olar ki, tamamlanıb. Ağbənd körpüsündə işlər bitib. Naxçıvan istiqamətində 188 km-lik dəmiryolu ilə körpülər, tunellər və viyaduktlar yenidən qurulur - illik buraxılış qabiliyyəti 15 milyon ton olacaq. Dəhlizin tam açılması 2028-ci ilə planlaşdırılır.

Telefon danışığı zamanı Azərbaycanın neft məhsullarının Ermənistana ixracı, tranzit yüklərin Azərbaycan ərazisindən Ermənistana daşınması, iki ölkə arasında ticarət əlaqələrinin başlanması müsbət hallar kimi qeyd edilib. Eləcə də, Telefon danışığı əsnasında TRIPP layihəsinin regional bağlantılar baxımından əhəmiyyəti vurğulanıb, Azərbaycan ərazisində nəqliyyat infrastrukturu işlərinin başa çatmaq mərhələsində olduğu bildirilib. Ermənistan ərazisində TRIPP layihəsi üzrə işlərin tezliklə başlanacağına ümidvarlıq ifadə olunub.

Qeyd edək ki, Zəngəzur dəhlizi (TRİPP) layihəsi post-müharibə dövründə məhz Azərbaycanın təşəbbüsü kimi ortaya çıxıb. 8 avqust 2025-ci il Vaşinqton görüşləri zamanı isə imzalanan üçtərəfli Bəyannamədə bu dəhlizin konturları özünün siyasi təsdiqini tapıb. Layihə birmənalı olaraq yeni iqtisadi nizamın əsas komponentlərindən biri kimi dəyərləndirilir. Mütəxəssislərin fikrincə, 15 milyon ton ötürmə potensialına malik olması gözlənilən Zəngəzur dəhlizi (TRİPP) yaxın gələcəkdə Orta Dəhlizin mühüm seqmentlərindən birinə çevriləcək. Bu isə Azərbaycanın geosiyasi mövqeyinin daha da möhkəmlənməsi ilə

### Strateji tərəfdaşlığa dair sənədin imzalanması tarixi hadisədir...

Dövlət başçıları, həmçinin ikitərəfli gündəliyə aid məsələləri müzakirə ediblər. Azərbaycanla ABŞ arasında strateji tərəfdaşlığa dair sənədin imzalanması tarixi hadisə kimi qiymətləndirilib, Azərbaycan-ABŞ əlaqələrinin keyfiyyətcə yeni yüksək səviyyəyə qalxdığı, strateji mahiyyət daşıdığı vurğulanıb və bunun da geniş bir bölgədə sülhə, sabitliyə töhfə verdiyi qeyd olunub.

Ötən ilin avqustunda Vaşinqtonda Azərbaycan ilə ABŞ arasında Strateji Tərəfdaşlıq haqqında Xartiyanın hazırlanması prosesi bu ilin fevralında öz məntiqi nəticəsinə çatdı. Fevralın 10-da ABŞ-ın vitse-prezidenti Cey. Di. Vensin Bakıya səfəri çərçivəsində Azərbaycan ilə ABŞ arasında Strateji Tərəfdaşlıq haqqında Xartiya imzalandı. Bu sənədin imzalanması iki ölkə arasındakı münasibətlərin keyfiyyətcə yeni mərhələsinin başlanğıcı kimi qiymətləndirilir. Xartiya özündə bir sıra mühüm məqamları ehtiva edir - diplomatik əlaqələrin genişlənməsi, strateji iqtisadi münasibətlər sisteminin formalaşdırılması, müasir çağırışlara əsasən dialoqun daha da gücləndirilməsi ilə yanaşı, sənəd həm də Azərbaycanın Cənubi Qafqazda formalaşdırdığı yeni siyasi reallıqların beynəlxalq müstəvidə qəbulunun göstəricisi sayıla bilər. Qarabağ müharibəsində əldə olunan zəfərdən sonra regionda yaranmış geosiyasi vəziyyət Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün tam bərpası ilə xarakterizə olunur. Xartiyanın preambulasında əksini tapan müddəalar Vaşinqtonun bu reallığı nəzərə aldığını və Bakı ilə münasibətləri yeni status və yeni əməkdaşlıq müstəvilərində inkişaf etdirmək niyyətində olduğunu göstərir. Belə ki, regional bağlantılar, iqtisadi sərmayə və təhlükəsizlik əməkdaşlığı da daxil olmaqla, qarşılıqlı maraq və ortaq fayda doğuran sahələrdə strateji tərəfdaşlıqların əhəmiyyəti hər iki ölkə tərəfindən təsdiqlənib. Eləcə də, diplomatik, iqtisadi, enerji, texnoloji və təhlükəsizlik sahələri də daxil olmaqla, qarşılıqlı maraq doğuran məsələlərdə münasibətləri gücləndirmək üçün birgə niyyətlər, strateji tərəfdaşlığın və genişləndirilmiş əməkdaşlığın planlaşdırılması və həyata keçirilməsinə yalnız dövlət qurumlarının deyil, həm də hər iki ölkənin özəl sektorlarının cəlb edilməsinin mühüm əhəmiyyəti vurğulanıb.

### Azərbaycan G20-yə dəvət olunub

Qeyd edək ki, dövlətimizin başçısı G20-yə dəvətə görə ABŞ Prezidentinə təşəkkür edib. Bu, ölkəmizə olan xoş münasibətin təzahürü kimi qiymətləndirilib. Telefon danışığı zamanı Azərbaycan-ABŞ strateji tərəfdaşlıq münasibətlərinin bundan sonra da uğurla inkişaf edəcəyinə əminlik ifadə olunub.

G20 - "Böyük iyirmilik" dünyanın aparıcı iqtisadiyyatlarını bir araya gətirən və qlobal iqtisadi idarəetmədə mühüm rol oynayan əsas çoxtərəfli platformalardan biri sayılır. Təşkilata 19 ölkə ilə yanaşı Avropa İttifaqı və Afrika İttifaqı daxildir. G20 ölkələri dünya ÜDM-nin təxminən 85 faizini, qlobal ticarətin 75 faizindən çoxunu və dünya əhalisinin təxminən üçdə ikisini təmsil edir. Buna görə də G20-də iştirak yalnız iqtisadi deyil, həm də mühüm siyasi və geosiyasi əhəmiyyət daşıyır. Azərbaycanın 2026-cı ildə G20 sammitinə dəvət olunması isə ölkəmizin beynəlxalq nüfuzunun və artan geosiyasi çəkisinin mühüm göstəricilərindən biri kimi qiymətləndirilə bilər. G20-nin 2026-cı il sammiti ABŞ sədrliyi ilə 14-15 dekabr tarixlərində Mayamidə keçiriləcək və Azərbaycanın adı ABŞ-ın G20 sədrliyinin rəsmi saytında dəvət olunan ölkələr sırasında yer alır. Bu dəvətin əhəmiyyəti böyükdür - Azərbaycan G20 üzvü olmadığı halda, qlobal iqtisadi və siyasi gündəmin müzakirə edildiyi ən nüfuzlu platformalardan birinə dəvət olunan ölkələr sırasında yer alır. Bu, Azərbaycanın artıq yalnız regional proseslərin iştirakçısı deyil, enerji təhlükəsizliyi, nəqliyyat-kommunikasiya, Orta Dəhliz, yaşıl enerji, iqlim gündəliyi və qlobal iqtisadi əməkdaşlıq kimi məsələlərdə beynəlxalq tərəfdaş kimi qəbul edildiyini göstərir.

Xüsusilə Azərbaycanın COP29-a ev sahibliyi etməsi, enerji və nəqliyyat layihələrində artan rolu, Avropa ilə enerji əməkdaşlığının genişlənməsi və Cənubi Qafqazda yeni geosiyasi reallıqların formalaşmasında oynadığı rol ölkəmizin beynəlxalq platformalardakı çəkisini artıran əsas amillərdəndir. Bakının bu platformaya dəvət olunması ölkəmizin qlobal iqtisadi güc mərkəzləri ilə əməkdaşlığının genişlənməsinin, beynəlxalq gündəmdə çəkisinin artmasının və Azərbaycan tərəfindən həyata keçirilən çoxvektorlu, praqmatik xarici siyasətin mühüm nəticələrindən biridir.

*Pərviz SADAYOĞLU*

# Müharibənin qalibi və sülhün təminatçısı

Ötən il avqustun 8-də Vaşinqtonda, Ağ Evdə, dünyanın bir nömrəli ofisində ABŞ, Azərbaycan və Ermənistan liderlərinin iştirakı ilə baş tutan görüşdən bizi bir illik zaman məsafəsi ayırır. Həmin görüşlə və ümumiyyətlə Vaşintonda aparılan müzakirələrlə bağlı təhlillər, eləcə də ötən bir ildə izlənilən hadisələr Azərbaycan - Ermənistan münasibətləri və sülhyaratma prosesi ilə bağlı mühüm qənaətlərə gəlməyə əsas verir. Prezident İlham Əliyevin 2025-ci il avqustun 8-9-da Vaşinqtona səfəri ABŞ-Azərbaycan əlaqələrinin transformasiyası ilə yanaşı, Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin formalaşmasında tarixi əhəmiyyətə malikdir.



Burada Azərbaycanın səyləri xüsusi diqqət çəkir. Məhz respublikamız, şəxsən Prezident İlham Əliyev qətiyyətli siyasi iradə, sülhə möhkəm sadiqlik naminə ardıcıl fəaliyyət sayəsində tənzimləmə prosesini mühüm substantiv nəticələrin əldə olunduğu Vaşinqton görüşünədək irəlilətməyə nail oldu. Ağ Evdə əldə olunan razılaşmalar onun təsdiqi idi ki, dünyanın supergüc dövləti sayılan ABŞ da daxil olmaqla beynəlxalq birlik ölkəmizin sülh gündəliyini qəbul edir və onu təqdirlə qarşılayır. Bu isə o anlama gəlir ki, Prezident İlham Əliyev həm müharibədə, həm də sülhdə qalib gəlib.

## Ölkəmiz, xalqımız işğal faktı ilə barışa bilməzdi və barışmadı da

Altı il bundan əvvəl - 2020-ci il sentyabrın 27-də ölkəmiz, xalqımız səhəri müharibə xəbəri ilə açdı. Səhər saat 06:00-da İkinci Qarabağ müharibəsi başlamışdı. Müharibə uzun çəkmədi - cəmi 44 gün davam etdi. Ancaq bu qısa müharibədə qazanılan Qələbə öz miqyasına və mahiyyətinə görə çox böyük idi. Müharibədə Azərbaycan yalnız işğalçı Ermənistana deyil, həm də onun arxasında dayanan böyük güclərə qalib gəlməklə ərazi bütövlüyünü təmin etdi.

Azərbaycan xalqı sülhsevər xalqdır. Ancaq müharibə qaçılmaz idi. İşğalçı Ermənistanın davranışları bunu zərurətə çevirmişdi. Müharibənin əsas səbəbi Ermənistanın üç onillik ərzində danışıqlar prosesində formal olaraq iştirak etməsi və işğalçılıq siyasətindən geri çəkilmək istəməməsi idi. Ermənistanın işğal illərində törətdiyi müharibə cinayətləri hər kəsə bəllidir. Adekvat şəkildə cəzalandırılmaması işğalçı ölkəni, necə deyərlər, daim yeni təxribatlara və yeni müharibə cinayətlərinə ruhlandırırdı. 27 sentyabr 2020-ci il ərəfəsində belə təxribatların miqyası daha da genişlənmişdi. 2020-ci ilin iyul ayında heç bir səbəb olmadan iki ölkə arasındakı dövlət sərhədinin Tovuz rayonu istiqamətində mövqelərimiz, dinc sakinlər və mülki infrastruktur erməni hərbi birləşmələri tərəfindən qəfil artilleriya atəşinə tutuldu. Avqust ayında işğalçı dövlət respublikamıza diversiya qrupu göndərdi. Bundan başqa, Şuşada qondarma rejimin başçısı özünə "andiçmə mərasimi" keçirir, Ermənistanın baş naziri Şuşada, Cıdır düzündə rəqs edir, qondarma "DQR"in parlamentinin Şuşaya köçürülməsi ilə bağlı planlar qurulurdu... 2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələri növbəti dəfə genişmiqyaslı təxribat törədərək cəbhəboyu zonada yerləşən Azərbaycan Ordusunun mövqelərini və yaşayış məntəqələrimizi iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutub. Azərbaycanın seçim imkanı qalmamışdı. Beləliklə, Ermənistan silahlı qüvvələrinin döyüş aktivliyinin qarşısını almaq, mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə Azərbaycan Ordusunun komandanlığı tərəfindən qoşunlarımızın bütün cəbhə boyu əks-hücum əməliyyatı başlaması barədə qərar verilib.

Müharibə ölüm-itim, qan-qada, göz yaşları, nisgil, ana fəryadı, talelərin pozulması, puça çıxan ümidlər deməkdir. Ancaq təzada bir baxın. Altı il bundan əvvəl sübh tezdən gələn müharibə xəbərini eşidən hər bir azərbaycanlı göz yaşlarını saxlaya bilməyərək "o gün gəldi, nəhayət, başladı" deyə pıçıldadı. Bu, ümummilli bir əhval-ruhiyyə idi. Əlinə silah alıb döyüşlərə gedəcək gənc də, oğlunu cəbhəyə yola salacaq ana-ata da, barmağında nişan üzüyü daşıyan, sevgi həsrəti çəkəcək qızlar da eyni hissləri keçirirdilər. Yaşanacaq fəsadlara, ağrı-acılara rəğmən, cəmiyyətimizin müharibə ovqatına köklənməsi isə təsadüfi deyildi. Bu, qəfil başlayan yox, gözlənilən bir müharibə idi. Buna görə də müharibənin başlaması xəbəri heç kəsi sarsıtmadı, əksinə bizləri cəsarətləndirdi, hər birimizi daxilən ön xəttə, Ordumuza yardıma səfərbər etdi. Bu, bütövlükdə Azərbaycan cəmiyyətinin yüksək vətənpərvərliyinin və həmrəyliyinin bariz ifadəsi idi.

Cəmiyyətimizin əhval-ruhiyyəsi ilə yanaşı, dövlətimizin siyasi qətiyyəti də ortada idi. Otuz il ərzində ATƏT-in Minsk qrupu formatında aparılan sülh danışıqlarında yüksək fəallıq göstərən, substantiv nəticələr əldə edilməsinə çalışan Azərbaycan dövləti Prezident İlham Əliyevin strateji baxışlarına və yanaşmalarına uyğun olaraq paralel şəkildə öz iqtisadiyyatını gücləndirmiş və müasir ordu qurmağa nail olmuşdu. Prezident İlham Əliyev ərazi bütövlüyümüzün təmin olunmasının ən real yolunu ölkənin gücləndirilməsində görürdü. Onun uzaqgörənliklə qarşıya qoyduğu hədəflər də məhz Azərbaycanın potensialının artırılmasına və bu əsasda güclü ordu qurulmasına hesablanmışdı. Ölkəmiz qətiyyətli və uzaqgörən Liderinin məqsədyönlü siyasəti sayəsində bu hədəfinə addım-addım yaxınlaşdı. Məhz ölkənin güclü potensialına və Silahlı Qüvvələrinin yüksək döyüş qabiliyyətinə əsaslanan Prezident İlham Əliyev müxtəlif auditoriyaların tribunalarından cəsarətlə bəyan edirdi ki, sülh danışıqları nəticə verməyəcəyi təqdirdə, Azərbaycan öz ərazilərini digər vasitələrlə işğaldan azad edəcək. Prezident İlham Əliyevin qətiyyəti sayəsində Azərbaycan dövləti bu məsələni həmişə öz gündəliyinin mərkəzində saxladı və siyasətini də əsas ümummilli ideyamızın reallaşdırılmasına uyğun apardı. Dünya 44 günlük müharibə günlərində Prezident İlham Əliyevin Lider qətiyyətininin, yüksək diplomatik məharətinin bir daha şahidi oldu.

**Prezident İlham Əliyev müsahibələrinin birində Vətən müharibəsini dəyərləndirərək "Bəli, bu, beynəlxalq hərbi mütəxəssislərin ümumi dəyərləndirməsidir ki, Azərbaycan XXI əsrin müharibəsini apardı. Bizdən əvvəl heç kim müharibəni bu cür aparmayıb. Təkcə dronlar deyildi, çox dəqiq kəşfiyyat var idi", - deyə vurğulayıb**

Ermənistanın genişmiqyaslı təxribatlarına qarşı əks-hücum əməliyyatının başlanmasından sonra ilk döyüşlərdə qazanılan uğurlar dövlət başçısı, Ali Baş Komandan İlham Əliyevin müharibə hazırlıqlarını necə yüksək keyfiyyətlə apardığını əyani şəkildə ortaya qoydu. Hər bir məsələdə müasir yanaşma tətbiq edən İlham Əliyev Vətən müharibəsində də novatorluq nümunəsi sərgilədi. Bu müharibənin, tətbiq olunan taktikaların dünya hərb tarixində analoqu yoxdur. Prezident İlham Əliyev müsahibələrinin birində Vətən müharibəsini dəyərləndirərək "Bəli, bu, beynəlxalq hərbi mütəxəssislərin ümumi dəyərləndirməsidir ki, Azərbaycan XXI əsrin müharibəsini apardı. Bizdən əvvəl heç kim müharibəni bu cür aparmayıb. Təkcə dronlar deyildi, çox dəqiq kəşfiyyat var idi", - deyə vurğulayıb.

Ordumuzun peşəkarlığının, yüksək döyüş qabiliyyətinin, hərbiçilərimizin göstərdikləri misilsiz qəhrəmanlıqların nəticəsi olaraq düşmən cəmi 44 gün ərzində bütünlüklə kapitulyasiyaya məruz qaldı. Azərbaycan Ordusunun sentyabrın 27-də Qarabağda başladığı uğurlu əks-hücum əməliyyatı nəticəsində noyabrın 9-dək 5 şəhər, 4 qəsəbə və 286 kənd işğaldan azad edilib. Cəbrayıl şəhəri və rayonun 90 kəndi, Füzuli şəhəri və rayonun 53 kəndi, Zəngilan şəhəri, rayonun Mincivan, Ağbənd, Bartaz qəsəbələri və 52 kəndi, Xocavənd rayonunun Hadrut qəsəbəsi və 35 kəndi, Tərtər rayonunun 3 kəndi, Qubadlı şəhəri və rayonunun 41 kəndi, Xocalı rayonunun 9 kəndi, Şuşa şəhəri, Laçın rayonunun 3 kəndi, həmçinin Ağdərə və Murovdağ istiqamətlərində bir neçə strateji yüksəklik, Zəngilanda isə Bartaz, Sığırt, Şükürataz yüksəkləri və daha 5 adsız yüksəklik azad olundu. Döyüşlərdə əldə edilən qələbənin siyasi müstəvidə davam etdirilməsi nəticəsində 44 günlük Vətən müharibəsindən sonrakı 20 gün ərzində 3 rayon - noyabrın 20-də Ağdam, noyabrın 25-də Kəlbəcər, dekabrın 1-də isə Laçın bir güllə atılmadan Azərbaycana təhvil verildi. 2022-ci avqustun 26-da Laçın şəhəri, Zabux və Sus kəndləri nəzarətə götürüldü. Bununla da üçtərəfli bəyanata uyğun olaraq, Ağdam, Kəlbəcər və Laçın rayonlarının sülh yolu ilə qaytarılması prosesi yekunlaşdı və Azərbaycan ərazi bütövlüyünün təmin edilməsinə hərbi-siyasi yolla nail oldu.

Məğlub Ermənistan 44 günlük müharibədə kapitulyasiyaya uğramasına baxmayaraq, üçtərəfli bəyanatla üzərinə götürdüyü öhdəlikləri tam şəkildə yerinə yetirməkdən yayınmağa çalışır və ərazilərimizdə təxminən 15 min kontingentə malik hərbi hissələrini saxlamaqda davam edirdi. Tez-tez təxribatlara əl atılırdı. Bütün bu təxribatların qarşısının alınması, üçtərəfli bəyanatın müddəalarının icrasının təmin olunması, Azərbaycan Respublikasının Konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə Azərbaycan 2023-cü il sentyabrın 19-da bölgədə lokal xarakterli antiterror əməliyyatına başladı. Bu əməliyyat uğurla baş tutdu. Cəmi 23 saat 43 dəqiqə ərzində erməni separatçıları ağ bayraq qaldırmağa məcbur oldular.

## Sülhün müəllifi Azərbaycandır

Azərbaycanla Ermənistan arasında ABŞ-da sülh müqaviləsinin paraflanması uzun bir prosesin məntiqi nəticəsi idi. Əslində, Ermənistan sülhə məcbur edilmiş və paraflanma ABŞ-ın vasitəçiliyi ilə baş tutmuşdur.

Azərbaycan sülh müqaviləsində nəzərdə tutulan 5 prinsipin müəllifidir. Ermənistan hazırda özünü sülh tərəfdarı kimi təqdim etsə də, bu, belə deyil. 2020-ci ildən əvvəl Ermənistan işğalı genişləndirmək planları qururdu. Bu ölkənin hərbi birləşmələrinin müharibə dövründə Azərbaycanın dinc şəhərlərini raket atəşinə tutması, 44 günlük müharibədən sonra Ermənistanın revanşist planları yaddaşlardan silinməyib. Yalnıız 2023-cü ildə keçirilən uğurlu antiterror əməliyyatından sonra Paşinyan reallıqları anlamağa başladı. Beləliklə, Ermənistan heç də özünü təqdim etdiyi kimi sülh tərəfdarı olmayıb, məhz İlham Əliyevin ardıcıl siyasəti, Azərbaycanın gücü Ermənistanı sülhə məcbur edib. Buna görə də Azərbaycan həm qalib ölkədir, həm də sülhün müəllifidir.

İkinci Qarabağ müharibəsinin başa çatmasından sonra regionda tənzimləmə prosesinə məhz Azərbaycanın təşəbbüsü ilə başlanıb. Dünya tarixindən bəllidir ki, müharibələrin qalib tərəfi olan dövlətlər bir qayda olaraq məğlub tərəfə öz şərtlərini diktə edirlər. Qalib Azərbaycan belə davranmadı, 10 noyabr 2020-ci il tarixində Ermənistan üçün kapitulyasiya sənədi hesab edilən üçtərəfli bəyanat imzalandıqdan sonra müharibə səhifəsini bağlamaq və gələcəyə baxmaq əzmini ortaya qoydu. Azərbaycanın müharibə başa çatandan sonra Ermənistana ünvanladığı 5 bənddən ibarət sülh paketində qalib dövlətin hansısa ambisiyları yer almırdı, əksinə bu sənəd sırf beynəlxalq hüquq və dünyada qəbul olunmuş norma və prinsiplər nəzərə alınmaqla hazırlanmışdı. Sonrakı mərhələdə Ermənistandakı revanşist qüvvələrin və onların xaricdəki havadarlarının manipulyativ davranışlar sərgiləmələrinə rəğmən, Azərbaycan bütün belə əsassız müqavimət cəhdlərinin qarşısını aldı və beləliklə də sülhə doğru böyük yol keçmək, nəzərdə tutulan bütün müddəaların razılaşdırılması mümkün oldu.

Ötən ilin avqustunda Vaşinqtonda Azərbaycan və Ermənistan liderlərinin, eləcə də ABŞ Prezidentinin iştirakı ilə "Azərbaycan Respublikası ilə Emənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis olunması haqqında Saziş"in hər iki ölkənin xarici işlər nazirləri tərəfindən paraflanması ikitərəfli tənzimləmə prosesində yeni mərhələ açıb. Sənədin mətnində əsas müddəalardan biri ərazi bütövlüyü ilə bağlıdır. Burada vurğulanır ki, Azərbaycan və Ermənistan bir-birinin suverenliyini, ərazi bütövlüyünü, beynəlxalq sərhədlərinin toxunulmazlığını və siyasi müstəqilliyini tanıyır və hörmət edirlər.

Hazırda regionda sülh reallıqdır. Tərəflər bunun nəticələrini hiss edirlər. O cümlədən Azərbaycan sülh prosesinə sadiqliyini nümayiş etdirərək öz ərazisindən Ermənistana tranzit yüklərin daşınmasına razılıq verib. Eyni zamanda, Azərbaycandan Ermənistana starteji enerji məhsulları göndərilir. Həmçinin iki ölkənin vətəndaş cəmiyyəti nümayəndələrinin mütəmadi görüşləri ilə etimad quruculuğu istiqamətində zəruri addımlar atılır.

İndiki mərhələdə yekun sülh sazişinin imzalanmasına yeganə maneə Ermənistan konstitusiyasıdır. Azərbaycan qalıcı sülh mövqeyindən çıxış edir. Bunun üçün isə yalnız sülh sazişini imzalamaq yetərli deyil. Qalıcı sülh üçün fundamental hüquqi baza olmalıdır. Ancaq Ermənistanın hazırkı konstitusiyası bu bazanı təmin etmir. Bu da onunla bağlıdır ki, Ermənistanın əsas qanununun preampula hissəsində açıq-aşkar respublikamıza qarşı ərazi iddialarının yer aldığı müddəalar var. Belə bir vəziyyətdə hansı məntiqlə qalıcı sülhdən danışmaq mümkündür? Buna görə də sülh təşəbbüsünün müəllifi olan Azərbaycan Ermənistan konstitusiyasının dəyişdirlməsini yekun sənədin imzalanması üçün əsas şərtlərdən biri kimi irəli sürüb. Ermənistan konstitusiya dəyişikliyinə getməklə sülh prosesinə nə qədər sadiq olduğunu ortaya qoyacaq. Bu dəyişikliklər ediləndən sonra artıq sülh sazişi istənilən vaxtda imzalana bilər.

**İkinci dünya müharibəsi 1945-ci ildə başa çatsa da, Almaniya ilə Fransa arasında sülh müqaviləsi yalnız 1963-cü ildə Yelisey razılaşmaları ilə təsdiqləndi. Prezident İlham Əliyev isə 2023-cü ildə antiterror əməliyyatından cəmi iki il sonra Ermənistanı sülhə məcbur etdi. 2025-ci il avqustun 8-də Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin paraflanması Prezident İlham Əliyevin fəaliyyətinin nəticəsi və müharibədə qalib olan dövlət başçımızın sülhdə də qələbəsidir**

İkinci dünya müharibəsi 1945-ci ildə başa çatsa da, Almaniya ilə Fransa arasında sülh müqaviləsi yalnız 1963-cü ildə Yelisey razılaşmaları ilə təsdiqləndi. Prezident İlham Əliyev isə 2023-cü ildə antiterror əməliyyatından cəmi iki il sonra Ermənistanı sülhə məcbur etdi. 2025-ci il avqustun 8-də Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin paraflanması Prezident İlham Əliyevin fəaliyyətinin nəticəsi və müharibədə qalib olan dövlət başçımızın sülhdə də qələbəsidir.

Prezident İlham Əliyev müharibədə qalib olaraq və Ermənistanı sülhə məcbur edərək yeni reallıq yaratdı. Bugünkü sülh, təhlükəsizlik mühitinin güclənməsi, Ermənistanın revanşist iddialardan geri çəkilməsi, konstitusion islahatlara razı olması və bu istiqamətdıə iş aparlması bunun nəticəsidir.

***Mübariz Abdullayev***

# Cənubi Qafqazın inkişafı üçün...

## Bakının formalaşdırdığı strateji yol xəritəsi Ermənistana yeni bir gələcək vəd edir

2020-ci il Vətən müharibəsi bütövlükdə Cənubi Qafqazın geosiyasi mənzərəsini dəyişdi. Azərbaycan beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq öz ərazi bütövlüyünü və suverenliyini bərpa etdi. Bununla da regionda uzun illər davam edən münaqişə mərhələsi arxada qaldı və yeni inkişaf dövrünün təməli qoyuldu. Müharibədən sonrakı mərhələdə formalaşan reallıqlar təkcə Azərbaycan üçün deyil, bütün region ölkələri üçün yeni imkanlar yaratdı.

Ən vacib məqamlardan biri isə ondan ibarətdir ki, Bakı əldə etdiyi hərbi-siyasi üstünlüyü revanşizm və qarşıdurma siyasətinə deyil, əməkdaşlıq və qarşılıqlı faydalı münasibətlər sisteminin qurulmasına yönəltdi. Azərbaycanın təşəbbüsü ilə gündəmə gətirilən layihələr Şərq ilə Qərbi, həm də Şimal ilə Cənubu inteqrasiya yolu ilə birləşdirən mühüm logistika xəttinə çevrilmək potensialına malikdir. Beləliklə, Cənubi Qafqaz tarixi dönüş nöqtəsində dayanır - uzun illər münaqişələrin, siyasi gərginliyin və qarşılıqlı etimadsızlığın hökm sürdüyü region artıq əməkdaşlıq, iqtisadi inteqrasiya və sabit inkişaf imkanları ilə üz-üzədir. Məhz buna görə də bölgədə yaranmış yeni reallıqların düzgün qiymətləndirilməsi və davamlı sülhün təmin olunması gələcək inkişaf üçün həlledici əhəmiyyət daşıyır. Azərbaycanın həyata keçirdiyi siyasət göstərir ki, regionun rifahı yalnız qarşıdurma səhifəsinin bağlanması və əməkdaşlıq mühitinin möhkəmləndirilməsi ilə mümkündür.

Bu, Ermənistan üçün də bir fürsətdir. Yeni dövrdə sülh prosesinin daha da inkişaf etdirilməsi, sazişin imzalanması İrəvana bölgənin ümumi konfiqurasiyasında əsaslı rol vəd edir. Yaranan fürsətdən istifadə edə bilsə, İrəvan gələcəkdə müstəqil siyasi xətt, iqtisadi azadlıq əldə edə biləcək. Ötən ilin avqustunda Vaşinqtonda əldə olunan razılaşmalar isə bu yolda ilkin addımlardır.



### İrəvandan Bakıya zəng...

Avqustun 8-də Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib. Telefon danışığı zamanı tərəflər ABŞ Prezidenti Donald Trampın dəstəyi ilə 2025-ci il avqustun 8-də Vaşinqtonda keçirilmiş və Azərbaycanla Ermənistan arasında sülhün bərqərar olmasını təmin etmiş Sülh Sammitinin birinci ildönümü, habelə Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında Sülh Sazişinin mətninin ilkin paraflanması münasibətilə fikir mübadiləsi aparıblar. Tərəflər sülh prosesinin irəliləməsində Prezident Donald Trampın və Amerika Birləşmiş Ştatları Hökumətinin oynadığı mühüm rolu xüsusi vurğulayıblar. Tərəflər ötən il ərzində Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması istiqamətində əldə olunmuş irəliləyişi qeyd ediblər. Söhbət zamanı iki ölkə arasında iqtisadi və ticari əlaqələrin inkişafının sülhün faydalarının konkret təzahürü olduğu vurğulanıb. Bu kontekstdə tərəflər Azərbaycanın neft məhsullarının Ermənistana ixracını, habelə tranzit yüklərin Azərbaycan ərazisindən Ermənistana və Ermənistandan digər istiqamətlərə daşınmasını qeyd ediblər. Bundan əlavə, tərəflər Vaşinqtonda əldə edilmiş razılaşmalara uyğun olaraq TRIPP marşrutunun icrası ilə bağlı fikir mübadiləsi aparıblar.

Tərəflər sülh prosesinin irəlilədilməsi və regionda davamlı sülhün, sabitliyin, o cümlədən bağlantıların və iqtisadi əməkdaşlığın təmin olunması istiqamətində səylərin davam etdirilməsinin vacibliyini vurğulayıblar.

### İkitərəfli iqtisadi əlaqələr

Qeyd olunduğu kimi, Azərbaycanın apardığı siyasət revanşizmə deyil, regionun davamlı inkişafına hesablanıb. Post-müharibə dövründə Bakı yalnız bəyanatlarla kifayətlənməyərək, konkret addımlar atmaqla yeni yanaşmasını praktik müstəvidə nümayiş etdirdi. İlk növbədə sülh şəraitinin yaradılması istiqamətində görülən işlər diqqət çəkir. Azərbaycan hərbi qələbədən sonra bölgədə gərginliyi artıracaq addımlardan imtina edərək, diplomatik kanalları ön plana çıxardı.

Eyni zamanda Ermənistana neft məhsullarının ixracı, Ermənistan üçün ərazimizdən keçərək yük daşınmasına icazə verilməsi mühüm siyasi mesaj daşıyır. Bu addım göstərdi ki, Azərbaycan regionda iqtisadi blokadalarla deyil, qarşılıqlı əlaqələr və fayda prinsipi ilə hərəkət etməyə hazırdır. Neft və enerji məhsullarının ixracı məsələsində də Bakının konstruktiv mövqeyi özünü göstərdi. Enerji təhlükəsizliyi məsələsində Azərbaycan yalnız öz maraqlarını deyil, regionun ümumi rifahını nəzərə alan aktor kimi çıxış etdi.

Qeyd edək ki, Azərbaycanın Ermənistana son neft məhsulları ixracı bu ilin aprel ayında həyata keçirilib. Beləliklə, Azərbaycandan Ermənistana ixrac edilmiş dizelin ümumi həcmi 6 312 tona çatıb. Bundan əlavə, 979 ton Aİ-92 və 2 955 ton Aİ-95 markalı benzin də göndərilib. Bu prosesin başlanğıcı isə 18 dekabr 2025-ci ildə qoyulub. İlk partiyada SOCAR-ın istehsal etdiyi Aİ-95 markalı benzin 22 vaqonla Ermənistana yola salınıb.

Sonrakı böyük partiyalardan biri 8 yanvar 2026-cı ildə göndərilib: 1 000 ton Aİ-92, 1 000 ton dizel və 1 800 ton Aİ-95 benzini.

Bütün bu addımların ünvanı aydındır - Ermənistan yaranmış tarixi fürsətdən maksimum yararlanmalıdır. Bakı açıq mesaj verir: sülh qarşı tərəf üçün risk deyil, inkişaf şansıdır. Əgər İrəvan bu çağırışlara cavab verməzsə, regional layihələrdən kənarda qalmaqla siyasi və iqtisadi baxımdan uduzan tərəf olacaq. Azərbaycanın post-müharibə yanaşması artıq faktiki olaraq yeni regional davranış modelinə çevrilib və bu model beynəlxalq aləmdə də maraqla qarşılanır.

### Zəngəzur dəhlizi (TRİPP): Avrasiyanın yeni iqtisadi aortası...

Azərbaycanın Cənubi Qafqaz üçün formalaşdırdığı ən mühüm yeni mərhələ isə Zəngəzur dəhlizinin (TRİPP) reallaşmasıdır. Yeni iqtisadi nizamda Şərq-Qərb tranzitini birləşdirəcək dəhliz digər region ölkələri üçün, xüsusilə İrəvan üçün mühüm əhəmiyyət kəsb edir. Zəngəzur dəhlizi (TRİPP) ümumən regionun inkişaf dinamikasını artırma imkanına malikdir. Dəhliz Şərq-Qərb marşrutu üzərində ən qısa yoldur. Təbii ki, istər yükdaşımalarında, istərsə də digər ticarət mübadilələrində ən qısa yolun seçilməsi iqtisadi baxımdan da böyük mənfəət vəd edir. Eyni zamanda, Zəngəzur dəhlizi (TRİPP) təhlükəsiz marşrut sayılır. İnfrastruktur baxımından da Zəngəzur dəhlizi (TRİPP) olduqca əlverişlidir. Zəngəzur dəhlizinin (TRİPP) ən mühüm üstünlüklərindən biri isə Avropa ilə Asiyanı birləşdirməklə yanaşı, Yaxın Şərq regionuna da yaxınlığıdır. Türkiyə vasitəsilə təkcə Avropaya deyil, eləcə də Yaxın Şərqə çıxış imkanı qazanacaq layihə tərəfdaşları bu üstünlükdən də yararlanmış olacaqlar.

Vurğulandığı kimi, Ermənistan bu dəhlizin açılması ilə yeni inkişaf mərhələsinə qədəm qoyacaq. Qeyd edək ki, Zəngəzur dəhlizinin (TRİPP) açılması Ermənistan üçün həm siyasi, həm də iqtisadi dividendlər vəd edir. Belə ki, Zəngəzur dəhlizi Ermənistanın regional ticarət yollarına çıxışını bərpa etməyə və daha böyük iqtisadi məkana inteqrasiya etməyə imkan verəcək. Dəhliz vasitəsilə Ermənistan daha böyük xarici bazarlara çıxış imkanı qazanacaq. Paralel olaraq Türkiyə və Azərbaycanla əlaqələri normallaşcaq- bu da özlüyündə, Ermənistan iqtisadiyyatına geniş imkanlar yaradacaq. Yeni logistika və infrastruktur imkanları sayəsində nəqliyyat, ticarət, enerji və xidmət sektorlarında inkişaf sürətlənəcək. Eyni zamanda, Ermənistanda xarici sərmayə artacaq - açıq sərhədlər və sülh mühiti Ermənistan iqtisadiyyatına inamı artıracaq. İqtisadi dalan mühiti aradan qalxacaq - Ermənistan üçün həm istehsal xərcləri azalacaq, həm də ixrac imkanları genişlənəcək.

Tarix göstərir ki, iqtisadi əməkdaşlıq və qarşılıqlı əlaqələr regional sabitliyin qorunmasının ən effektiv vasitələrindən biridir. Dövlətlər arasında iqtisadi əlaqələr nə qədər güclü olarsa, qarşıdurma ehtimalları da bir o qədər azalır. Bu baxımdan Cənubi Qafqazda əməkdaşlıq imkanlarının genişlənməsi bölgənin təhlükəsizlik mühitinə mühüm töhfə verə bilər. Müharibədən sonrakı dövrdə yaranan yeni geosiyasi vəziyyət region dövlətlərini əməkdaşlığa sövq edən əsas amillərdən biri kimi çıxış edir.

Əməkdaşlığın genişlənməsi xalqlar arasında etimadın formalaşmasına da xidmət edir. Uzunmüddətli sülh yalnız siyasi sənədlərlə deyil, iqtisadi və humanitar əlaqələrin inkişafı ilə möhkəmlənə bilər. Buna görə də əməkdaşlıq yalnız iqtisadi inkişaf vasitəsi deyil, həm də təhlükəsizlik və rifahın təminatçısı kimi çıxış edir. Bütün iqtisadi layihələrin, inteqrasiya təşəbbüslərinin və əməkdaşlıq planlarının uğurla həyata keçirilməsi üçün əsas şərt davamlı və etibarlı sülhün təmin olunmasıdır. Müharibədən sonra yaranmış yeni reallıqlar region üçün böyük imkanlar açsa da, bu imkanların tam şəkildə reallaşdırılması yalnız sülh müqaviləsinin imzalanması ilə mümkündür. Sülh olmadan iqtisadi potensialın tam istifadəsi, investisiyaların cəlb olunması və regional inteqrasiyanın dərinləşdirilməsi çətinləşir. Ermənistanın Azərbaycanla yekun sülh sazişi imzalaması təkcə iki ölkə arasında münasibətlərin normallaşması deyil, həm də bütün Cənubi Qafqazın gələcəyi üçün mühüm addım olacaq. Bu addım regionun uzun illər istifadəsiz qalmış iqtisadi potensialını üzə çıxara bilər. Azərbaycanın uzunmüddətli və ardıcıl xarici siyasət kursu nəticəsində formalaşmış beynəlxalq tərəfdaşlıq şəbəkəsi region dövlətləri üçün yeni imkanlar yaradır. Ermənistan da bu prosesə

### Əsas şərt sülhdür...

qoşulmaqla iqtisadi və siyasi baxımdan yeni inkişaf mərhələsinə qədəm qoya bilər. Lakin bunun üçün ilk növbədə siyasi iradə nümayiş etdirilməlidir. Regionda yeni dövrün tələblərinə uyğun davranmaq, keçmişin qarşıdurma siyasətindən imtina etmək və beynəlxalq hüququn prinsiplərinə hörmət göstərmək vacibdir. Qarşılıqlı suverenliyin və ərazi bütövlüyünün tanınması, münasibətlərin normallaşdırılması və hüquqi əsasların formalaşdırılması sülh prosesinin uğurunu müəyyən edən əsas amillərdir. Bunun üçün isə Ermənistan mütləq şəkildə Konstitusiyasında yer alan Azərbaycana qarşı əsassız iddialardan geri çəkilməlidir. Məhz bu halda Cənubi Qafqaz sabitlik, rifah və inkişaf məkanına çevrilə bilər.

**P.İSMAYILOV**

# BTQ-dən Hindistan hökumətinə çağırış...




Bakı Təşəbbüs Qrupu (BTQ) Hindistanda etiraz edən siqh icması ilə həmrəyliyini ifadə edib.

Bu barədə BTQ-nin "X" sosial şəbəkəsindəki rəsmi səhifəsində bildirilib.

Məlumatda qeyd olunub ki, siqh icmasının liderləri və nümayəndələri Ambaladakı Pəncoxra Sahib polis məntəqəsinin qarşısında etiraz aksiyası keçirib və Hindistan hökumətini "Xalistana qarşı çıxan fəallara münasibətdə dərhal və qərəzsiz tədbirlər" görməyə çağırıblar (Xalistan - Hindistanın Pəncab ştatının ərazisində müstəqil siqh dövlətinin yaradılması layihəsidir - red.).

"BTQ siqh icması ilə həmrəyliyini ifadə edərək Hindistan hökumətini qanun qarşısında bərabər müdafiəni təmin etməyə, təqsirkarların məsuliyyətə cəlb olunmasına, lazımi hüquqi prosedurlara riayət edilməsinə, eləcə də siqh dini obyektlərinin və icma nümayəndələrinin müdafiəsini təmin etməyə çağırır", - məlumatda bildirilib.

Qeyd edək ki, avqustun 7-də Hindistanın Haryana ştatının Ambala şəhərində siqhlərlə müstəqil Xalistan dövlətinin yaradılması hərəkatına qarşı çıxan fəallar arasında münaqişə baş verib. İnsident zamanı iki polis əməkdaşı yaralanıb. Polis iki gənc siqhi saxlayıb, bundan sonra icmanın nümayəndələri polis məntəqəsinin qarşısında etiraz aksiyasına çıxaraq, onların azad edilməsini tələb ediblər.

# Müstəmləkəçiliyin davam edən izləri...

9 Avqust - Beynəlxalq Yerli Xalqlar Günü yalnız yerli xalqların mədəniyyət və irsini qeyd edən tarix deyil, həm də müstəmləkəçiliyin yaratdığı tarixi ədalətsizlikləri və onun bu gün də davam edən ağır nəticələrini xatırladan mühüm gündür. Fransa və Niderland kimi müstəmləkəçi dövlətlər əsrlər boyu əsarət altında saxladıqları yerli xalqların fundamental hüquqlarını, mədəni və dil kimliklərini bu gün də sistemli şəkildə tapdalamaqda, öz müqəddəratını təyin etmək tələblərini görməzdən gəlməkdə, əhalini zorakı assimilyasiya siyasətinə məruz qoymaqda, sahib olduqları ərazilərin təbii sərvətlərini istismar etməkdə və torpaqlarını məninmsəməkdə davam etməkdədirlər.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Bakı Təşəbbüs Qrupunun (BTQ) Beynəlxalq Yerli Xalqlar Günü ilə bağlı bəyanatında əksini tapıb.

Bəyanatda, həmçinin deyilir: "Avropanın coğrafi məkanında yerləşməsinə baxmayaraq, Korsika xalqı rəsmi Paris tərəfindən hücumlara məruz qalır, yerli Korsika dili sıxışdırılır, müstəqillik tələb edən partiyalara və hərəkatlara qarşı "terror təhlükəsi" adı altında silahlı hücumlar təşkil olunur.

Fransanın uzunmüddətli müstəmləkəçilik siyasəti Ma?ohi Nui (Fransız Polineziyası) ilə birlikdə BMT-nin dekolonizasiya olunmalı ərazilər siyahısında yer alan Kanakinin (Yeni Kaledoniya) əsrlər boyu sahibi olmuş Kanak xalqının siyasi, sosial və iqtisadi hüquqlarının məhdudlaşdırılmasına, onların öz tarixi torpaqlarında sıxışdırılmasına və torpaq üzərində nəzarət imkanlarının əhəmiyyətli dərəcədə zəifləmədilməsinə səbəb olmuşdur. Fransa uzun illər materik Fransadan planlı şəkildə əhalinin adaya köçürülməsinə və yerli kanakların azlıqda qalmasına şərait yaradan demoqrafik siyasət həyata keçirir, Kanak xalqının bu siyasətə qarşı qanuni etirazları isə Fransa tərəfindən silahlı müdaxilə ilə qarşılanır. 2024-cü ilin may ayında Fransanın seçici siyahılarına dair islahat cəhdinə qarşı Kanak xalqının keçirdiyi dinc etiraz aksiyaları zamanı Kanak mənşəli vətəndaşlar Fransa qüvvələri tərəfindən qətlə yetirilib. Bununla yanaşı, müstəqillik tərəfdarı siyasi qüvvələrin rəhbərləri qanunsuz həbs olunaraq, onlardan bir neçəsi Fransaya aparılıb.

Maohi Nui-də (Fransız Polineziyası) əhalinin böyük əksəriyyətini yerli Maohi Nui xalqı təşkil edir. Təxminən 5 milyon km-lik EEZ-a malik bu strateji ərazinin dəniz resursları üzərində əsas nəzarət Fransa dövlətinin əlindədir. Fransanın 1966-1996-cı illərdə burada keçirdiyi 193 nüvə sınağı isə müstəmləkəçiliyin ən ağır miraslarından biri olaraq ətraf mühitə və yerli əhalinin sağlamlığına uzunmüddətli zərər vurub. Bu sınaqlar Maohi xalqının hüquq və təhlükəsizliyinin Fransa hərbi-strateji maraqlarına tabe etdirilməsinin bariz nümunəsi kimi qiymətləndirilir.

Qvadelupa və Martinikdə müstəmləkəçiliyin ən ağır və uzunmüddətli nəticələrindən biri xlordekon pestisidinin yaratdığı genişmiqyaslı ekoloji çirklənmədir. Onilliklər ərzində istifadə edilən bu yüksək toksik maddə torpaq və su ehtiyatlarını çirkləndirərək regionun ekosisteminə və ictimai sağlamlığa ciddi zərər vurub. Xlordekon Antil əhalisinin 90 faizindən çoxunun orqanizmində aşkar edilib.




Fransanın cənub-qərbində yaşayan Basklar (Basques) və ölkənin qərbində məskunlaşan Bretonlar (Bretons) uzun illər ərzində Parisin sərt mərkəzləşmiş və assimilyasiya siyasəti və "vahid millət, vahid dil" adı altında öz milli kimliklərini, dillərini və mənəvi irslərini itirmək təhlükəsi ilə üz üzədirlər.

Fransız Qvianasında yaşayan Kali'na, Lokono, Wayana, Wayampi, Teko və Palikur xalqları Fransanın uzunmüddətli müstəmləkəçilik siyasətinin qurbanına çevriliblər.

Mayottada Qəmər və Malaqasi mənşəli olan yerli Mahorais əhalisi Fransanın müstəmləkə idarəçiliyinin uzunmüddətli nəticələri ilə yanaşı, təbii fəlakətlərə qarşı həssaslığın da ağır nəticələrini yaşayır.

Niderlandın müstəmləkə əsarətində olan Boneyra, Aruba, Saba və Sen-Martin kimi Karib ərazilərində yaşayan yerli xalqlar uzun illərdir müstəmləkə idarəçiliyinin siyasi, iqtisadi və sosial nəticələri ilə üzləşirlər. Niderlandın tətbiq etdiyi idarəetmə və iqtisadi siyasətlər nəticəsində torpaqların kommersiyalaşdırılması, sürətli turizmin genişlənməsi, xarici kapitala artan asılılıq və daşınmaz əmlak qiymətlərinin yüksəlməsi yerli əhalinin öz torpaqlarında münasib qiymətə mənzil və iqtisadi resurslara çıxışını çətinləşdirir. Eyni zamanda, bu proseslər yerli xalqların milli və mədəni kimliyinin zəifləməsinə, təbii sərvətlər üzərində nəzarət imkanlarının azalmasına və siyasi qərarvermədə asılılığın dərinləşməsinə səbəb olur".

# Qlobal iqtisadi əməkdaşlıq və sərmayə cəlbi üçün yeni mərhələ

## Ölkəmizdə keçirilən Beynəlxalq İnvestisiya Forumu davamlı və nümunəvi tədbir kimi davam etdiriləcək

Prezident İlham Əliyevin imzaladığı müvafiq Sərəncama əsasən, Birinci Azərbaycan Beynəlxalq İnvestisiya Forumunun davamlı beynəlxalq platforma kimi inkişaf etdirilməsi məqsədilə Təşkilat Komitəsi yaradılıb. Komitə İnvestisiya Forumunun uğurlu nəticələrini və formalaşmış əməkdaşlıq əlaqələrini mütəmadi əsasda təşkil edəcək, bu tədbirin qlobal iqtisadi əhəmiyyətinin təşviqi istiqamətində müvafiq işlər görəcək.

Qeyd edək ki, Birinci Azərbaycan Beynəlxalq İnvestisiya Forumu 2025-ci il sentyabrın 22-23 tarixlərində İqtisadiyyat Nazirliyi, İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin (AZPROMO) təşkilatçılığı, Avropa Evi - "Ambrosetti"nin (TEHA) strateji tərəfdaşlığı, həmçinin "Euronews"in media və təşkilati dəstəyi ilə Bakıda keçirilib. Forum dövlət rəsmiləri, biznes liderləri və beynəlxalq investorları bir araya gətirib.



### Qlobal biznes icması üçün nümunəvi platforma

Azərbaycan paytaxtında toplanan beynəlxalq investorlar qrupu Şərq və Qərbin strateji qovşağında yerləşən ölkələrin investisiya imkanlarını araşdırmaq, qlobal ticarətin və dayanıqlı təchizat zəncirlərinin gələcəyini formalaşdırmaq üçün unikal platforma olan Bakı Forumunda mühüm görüşlər keçirib, faydalı müzakirələr aparıb. Tədbirdə 50-dən çox ölkənin sərmayədarları yeni qlobal rəqabətlilik paradiqmalarına dair dəyərli biliklər əldə etməklə yanaşı, yüksək səviyyəli əlaqələr qurmaq, strateji sazişlər bağlamaq və yeni tərəfdaşlıqlar formalaşdırmaq imkanları qazanıblar.

Forumda regionların strateji inteqrasiyası, tranzit imkanları, enerji və infrastruktur layihələri, innovasiyalar, "yaşıl" enerji, daşınmaz əmlak, şəhərsalma və dayanıqlı inkişaf mövzularında plenar iclas və dörd panel sessiyası baş tutub. Tədbirin ikinci günü isə dövlət-özəl tərəfdaşlığı, maliyyə, səhiyyə, biotexnologiya, əczaçılıq və rəqəmsal sağlamlıq, kənd təsərrüfatı, aqrobiznes, ərzaq sənayesi, sənayeləşmə, kiçik və orta sahibkarlıq, "yaşıl" keçid, eləcə də sahibkarların inklüzivliyi mövzularına həsr olunan panel sessiyaları keçirilib. Bu isə investorlar arasında sərmayə bağlantılarının təşviqi və reallaşması baxımından mühüm əhəmiyyət kəsb edib.




Birinci İnvestisiya Forumu ötən il mühüm sənədlərin imzalanması baxımından da əlamətdar olub. Belə ki, Azərbaycan və Birləşmiş Ərəb Əmirlikləri arasında imzalanan "Şəhər içində şəhər" Konsepsiyasının inkişafı üzrə əməkdaşlıq sazişi imzalanıb ki, müasir şəhərsalma prinsipləri, "yaşıl şəhərsalma"ya keçid və digər qabaqcıl sənaye texnologiyalarının tətbiqi üçün imkanlar yaradır. Habelə, Azərbaycan və Səudiyyə Ərəbistanının "ACWA Power" şirkəti arasında "Xəzər dənizində Suyun Duzsuzlaşdırılması Zavodunun layihələndirilməsi, tikintisi, istismarı və texniki xidməti üzrə saziş" imzalanıb. Saziş dizayn, tikinti, maliyyələşdirmə, istismar və texniki xidmət mərhələlərini əhatə edir. Layihə regionda su ehtiyatlarının səmərəli idarə olunmasına və içməli su təminatının artırılmasına yönəlib. Bundan əlavə, forumda "Emal olunmuş suyun alınmasına dair saziş" sənədi də imzalanıb.

### 2004-2025-cü illər ərzində iqtisadiyyata 350 milyard dollar investisiya qoyulub

Müstəqilliyi qazandıqdan etibarən Azərbaycan xarici investorlarla əməkdaşlığa xüsusi önəm verərək dünyanın aparıcı şirkətləri ilə birlikdə həm ölkəmiz, həm də region üçün mühüm əhəmiyyət kəsb edən layihələrə imza atıb. Ölkəmizdə həyata keçirilmiş sosial-iqtisadi islahatlar və qlobal iqtisadiyyata inteqrasiya aparıcı beynəlxalq şirkətlər üçün ölkəmizdə geniş və əlverişli imkanlar yaradıb. Bu sağlam və münbit investisiya iqlimi sayəsində 2004-2025-cü illər ərzində iqtisadiyyata 350 milyard dollardan çox sərmayə qoyulub, onun əhəmiyyətli hissəsi və ya 220 milyard dolları qeyri-neft sektorunun inkişafına yönəldilib. Bu, xarici investorların Azərbaycana olan etimadı, ölkəmizdə hökm sürən təhlükəsizlik və sabitlik mühitinin bariz göstəricisidir.

Hazırda Azərbaycanda minlərlə xarici kapitallı şirkət fəaliyyət göstərir. Bu, ölkəmizdə müasir korporativ idarəetməyə əsaslanan, rəqabətli və dayanıqlı iqtisadiyyatın formalaşmasına mühüm töhfədir. Əldə edilmiş dayanıqlı etimad sayəsində əksər xarici şirkətlər mənfəətlərini ölkə iqtisadiyyatına təkrar investisiya etməkdə düzgün yol kimi seçməkdədir.

Ölkəmizin ərazi bütövlüyü təmin olunandan sonra Azərbaycanın səyləri ilə regionda uzunmüddətli sülh, sabitlik və dayanıqlı inkişafın əsası qoyuldu. Hazırda Azərbaycan xarici siyasətində artıq iqtisadi diplomatiyaya üstünlük verərək diqqətini yeni əməkdaşlıq əlaqələrinin qurulmasına, qeyri-neft sahələrinin, xüsusilə də ölkənin turizm potensialının daha da gücləndirilməsinə istiqamətləndirir.

Ölkəmizdə iqtisadi artımın uzunmüddətli sabit trendə çevrilən qeyri-neft sektoru əsas inkişaf drayveri kimi həm yerli, həm də xarici investorların diqqətini cəlb edir. Qeyd edək ki, 2021-2025-ci illərdə qeyri-neft sektoru hər il orta hesabla 6-7 faiz artıb və ümumi iqtisadiyyatda payı 70 faizə yüksəlib. Eləcə də qeyri-neft ixracı son altı ildə demək olar ki, iki dəfə artıb. Bu amil də ölkəmizin rəqabət qabiliyyətinin yüksəlməsinin əyani göstəricisidir.

### "Fitch" və "Moodys" ölkəmizin reytinqini investisiya dərəcəsinə yüksəldib

Qabaqcıl biznes ideyalarının tətbiqi, dövlət-özəl tərəfdaşlıq mexanizmləri və həyata keçirilən islahatlar nəticəsində özəl sektorun iqtisadiyyatda payı 82 faizə yüksəlib. İqtisadiyyatın davamlı inkişafı əhalinin rifahını yüksəltmiş və ölkənin maliyyə gücünü artırıb. Son 23 ildə dövlət büdcəsinin gəlirləri 24 dəfə, strateji valyuta ehtiyatları 25 dəfədən çox artıb, dövlətin xarici borcunun ümumi daxili məhsula nisbəti isə 6 faizə düşərək dünya üzrə ən aşağı göstəricilərdən birinə çevrilib.

Azərbaycanın güclü maliyyə bazasına, makroiqtisadi və makromaliyyə sabitliyinə, əlverişli biznes mühitinə malik olması dünyanın nüfuzlu institutlarının hesabatlarında da öz əksini tapır. "Dünya Bankının 'Business Ready" sorğusunun nəticələri, eləcə də aparıcı beynəlxalq kredit reytinq agentliklərinin qərarları göstərir ki, Azərbaycanın mövqeyi son illərdə əhəmiyyətli dərəcədə yaxşılaşıb. "Fitch" və "Moodys" beynəlxalq reytinq agentlikləri ölkəmizin reytinqini investisiya dərəcəsinə yüksəldib.

### Zəngəzur dəhlizi qlobal daşınmaları artıracaq

Azərbaycanın əlverişli coğrafi mövqeyi ölkəmizi regional iqtisadi siyasətin strateji mərkəzinə çevirir. Orta Dəhliz üzrə tranzit yük daşımalarının həcmi ildən-ilə artır. Gələcək illərdə, xüsusilə də Zəngəzur koridorunun işə düşməsi ilə bu göstəricinin daha da artması gözlənilir. Ölkədə yaradılmış müasir infrastruktur, o cümlədən Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Ələt Azad İqtisadi Zonası və müasir dəmir yolu infrastrukturu sərmayədarlara qlobal bazarlara birbaşa çıxış və yüksək tranzit səmərəliliyi təklif edir.

Ölkəmizdə qanunun aliliyinin təminatı, hökm sürən siyasi sabitlik və sərmayələrin qorunması iqtisadi siyasətimiz üçün fundamental amil rolunu oynayır və investorlar üçün uzunmüddətli etimad mühiti yaradır. İnvestorların hüquq və mənafelərinin qorunması, yerli və xarici sahibkarlara əlverişli münbit şəraitinin yaradılması, Rəqabət Məcəlləsinin qüvvəyə minməsi sərmayə cəlbediciliyinin artırılmasında yeni mərhələ açıb.

Yaradılmış infrastruktur və hüquqi təminatlar əsasında Azərbaycan biznes layihələrini dəstəkləməyə, texnologiya, investisiya və təcrübə gətirən tərəfdaşlıqları irəli aparmağa tam hazırdır. Eyni zamanda dövlət-özəl tərəfdaşlıq mexanizmləri sərmayədarlara dayanıqlı layihələrə qoşulmaq imkanı verir. Ənənəvi enerji sahəsindəki uğurlarımız bu gün rəqəmsal iqtisadiyyat və texnoloji transformasiya ilə tamamlanır. Bulud texnologiyalarının genişləndirilməsi, rəqəmsal məlumat infrastrukturunun inkişafı və innovativ həllərin iqtisadiyyatın əsas sahələrinə inteqrasiyası Azərbaycanın gələcəkdə yüksək texnologiyalar və süni intellekt sahəsində strateji mərkəz rolunu oynaması üçün mövqelərini daha da möhkəmləndirir.

Bütün bu mühüm amillər beynəlxalq sərmayə ailəsinin Azərbaycana olan marağını, investisiya təşviqlərini daha da artırır. Məhz bu baxımdan ölkəmizdə ötən il keçirilmiş ilk İnvestisiya Forumu beynəlxalq əməkdaşlıq və sərmayə cəlbinin yeni mərhələsi üçün başlanğıc deməkdir. Forum innovativ biznes ideyalarının reallaşdırılması və əlverişli işgüzar imkanların genişləndirilməsi, kapital, texnologiya və ideyaların Azərbaycana gətirilməsi baxımından mühüm tədbir kimi yadda qalıb.

Bir sözlə, Azərbaycanda ilk dəfə keçirilən Birinci İnvestisiya Forumu qarşılıqlı faydalı əməkdaşlığın dərinləşdirilməsi, yeni tərəfdaşlıq əlaqələrinin qurulması, qabaqcıl ideyaların və layihələrin müzakirəsi, ölkəyə yeni investisiyaların cəlb olunması üçün mühüm platforma kimi tarixə düşüb. Qlobal biznes icmasının tələb və marağı nəzərə alınaraq Forumun davamlılığının təmin edilməsi nəzərdə tutulur. Bu məqsədlə yeni yaradılan Təşkilat Komitəsi bu qlobal tədbirin daha geniş formatda və daha çox investisiya şirkətlərinin iştirakı üçün zəruri tədbirləri həyata keçirəcək.

***E.CƏFƏRLİ***

# Müharibələr futbola görə başlanmır

## "Futbol müharibəsi" beynəlxalq siyasətə nə öyrətdi?

Tarixə "Futbol müharibəsi" adıyla düşmüş 1969-cu ilin Salvador-Honduras silahlı münaqişəsi beynəlxalq münasibətlər tarixində ən çox yanlış izah edilən hadisələrdən biridir. İlk baxışda belə görünür ki, iki dövlət arasında keçirilən futbol oyunu müharibəyə səbəb olub. Lakin hadisələrin mahiyyətinə nəzər salanda məlum olur ki, futbol yalnız uzun illər yığılıb qalmış siyasi, iqtisadi və sosial ziddiyyətlərin üzə çıxmasına səbəb olan son hadisə idi.

Bu gün də beynəlxalq siyasətdə oxşar vəziyyət müşahidə olunur. Münaqişələrin görünən səbəbləriylə onların əsl səbəbləri çox vaxt eyni olmur. Dövlətlər arasında gərginlik bəzən sərhəd insidentləri, siyasi bəyanatlar və ya iqtisadi mübahisələrdən başlanır. Əslində isə həmin münaqişələrin kökündə illərlə həll olunmamış təhlükəsizlik problemləri, resurs uğrunda rəqabət, geosiyasi maraqlar və qarşılıqlı etimadsızlıq dayanır. Ankara NATO Sammiti fonunda aparılan müzakirələrdə də "Futbol müharibəsi" nümunəsinin xatırladılması təsadüfi deyildi. Bu hadisə müasir beynəlxalq münasibətlər üçün də aktual dərs kimi qiymətləndirilir.

1969-cu ildə Honduras sosial-iqtisadi problemlərlə üzləşmişdi. Torpaq çatışmazlığı, kənd təsərrüfatında böhran və əhalinin sürətli artımı ölkədə gərginliyi artırırdı. Minlərlə Salvador vətəndaşı illər boyu Honduras ərazisində yaşayır və işləyirdi. Torpaq islahatlarına başlanandan sonra həmin miqrantların böyük hissəsi ölkədən çıxarıldı. Bu qərar iki dövlət arasında münasibətləri daha da gərginləşdirdi.




Məhz belə bir şəraitdə futbol üzrə dünya çempionatının seçmə mərhələsində keçirilən oyunlar cəmiyyətlərdə emosional gərginliyi pik həddə çatdırdı. Medianın sərt ritorikası, qarşılıqlı ittihamlar və ictimai emosiyalar siyasi rəhbərlik üzərində təzyiq yaratdı. Nəticədə qısa müddət sonra silahlı qarşıdurma baş verdi. Bu hadisə beynəlxalq münasibətlər üçün mühüm nəticə çıxarmağa imkan verir: heç bir müharibə bir gündə və ya bir hadisə nəticəsində başlanmır. Müharibə illərlə yığılan problemlərin, uğursuz diplomatiyanın və siyasi qərarsızlığın nəticəsi olur.

Bu gün də dünya oxşar proseslərlə üzləşir. Ukrayna müharibəsi yalnız 2022-ci ilin hadisəsi deyil, onun kökləri daha əvvəl formalaşmış təhlükəsizlik mübahisələrinə gedib çıxır. Yaxın Şərqdə baş verən qarşıdurmalar da təkcə bir hadisənin nəticəsi deyil, onilliklər ərzində həll edilməmiş siyasi və dini ziddiyyətlərin davamıdır. Cənubi Çin dənizində artan gərginlik, Tayvan ətrafında müşahidə olunan hərbi fəallıq və digər regional böhranlar da oxşar xüsusiyyətlər daşıyır.

Beynəlxalq münasibətlərdə ən böyük səhvlərdən biri münaqişələrin yalnız nəticələrinə reaksiya verməkdir. Əsl siyasət isə böhranın səbəblərini vaxtında müəyyənləşdirməyi tələb edir. Dövlətlər arasında etimad mexanizmləri zəiflədikcə bəhanə kimi istifadə olunan təsadüfi hadisələr genişmiqyaslı siyasi böhranlara çevrilir.

Bu baxımdan diplomatiya xüsusi əhəmiyyət kəsb edir. Güclü diplomatiya yalnız sazişlərin imzalanması deyil, həm də risklərin vaxtında müəyyən edilməsi, qarşılıqlı etimadın qorunması və böhranların idarə olunması deməkdir. Tarix göstərir ki, hərbi əməliyyatları dayandırmaq mümkündür, lakin müharibənin qarşısını almaq daha böyük siyasi peşəkarlıq tələb edir.

Azərbaycanın son illər həyata keçirdiyi balanslaşdırılmış xarici siyasət də bu baxımdan diqqətəlayiqdir. Regiondakı mürəkkəb geosiyasi şəraitə baxmayaraq, ölkə eyni vaxtda müxtəlif beynəlxalq tərəfdaşlarla əməkdaşlıq etməyə, enerji və nəqliyyat layihələrini inkişaf etdirməyə, diplomatik platformalarda fəal iştirak etməyə çalışır. Belə yanaşma regional sabitliyin qorunmasına xidmət edən amillərdən biri kimi qiymətləndirilə bilər.

"Futbol müharibəsi" tarixdə qısa sürsə də, onun dərsləri bu gün də aktuallığını itirməyib. Münaqişələr təsadüfən başlanmır, onlar uzun müddət yığılıb qalmış, həllini tapmamış problemlərin nəticəsində yaranır. Bu səbəbdən müasir dünyada təhlükəsizliyin əsas təminatı yalnız güclü ordu deyil, həm də işlək diplomatiya, iqtisadi əməkdaşlıq və qarşılıqlı etimad mühitidir.

Yeni əsrin əsas çağırışı da məhz budur: dövlətlər müharibənin səbəblərini vaxtından aradan qaldıra biləcəkmi, yoxsa tarix müxtəlif adlar altında eyni səhvləri təkrarlayacaq? Bu sualın cavabı yalnız siyasətçilər üçün yox, beynəlxalq sabitlik və təhlükəsizlik naminə bütün dünya üçün həlledici əhəmiyyət daşıyır.

***Kəramət QƏNBƏROV,***
***Beynəlxalq hüquq üzrə ekspert***

# Suriya ilə Rusiya razılaşdı...

## Moskva nəzarətində olan hərbi bazaları Dəməşqə təhvil verir

Dəməşq ilə Moskva arasında uzun müddət idi ki, davam edən Rusiyanın bu ölkədəki hərbi bazalarının gələcək taleyi ilə bağlı məsələyə aydınlıq gəlib. Belə ki, Suriya Xarici İşlər Nazirliyi rəsmi Moskva ilə bir il yarım davam edən danışıqlardan sonra Hmeymim və Tartusdakı Rusiya bazalarının gələcəyi ilə bağlı razılığın əldə olunduğunu açıqlayıb. Razılaşma çərçivəsində Suriya sahillərində mülki obyektlərin idarəçiliyi Suriyaya təhvil veriləcək, Hmeymim Hava Limanı və Tartus Limanı mərhələli şəkildə Suriya idarəçiliyinə keçəcək.

Rusiyaya məxsus hərbi baza və obyektlərin yenidən nizamlanması barədə də razılıq əldə olunduğu və bu bazaların Suriya təlim və məşq mərkəzlərinə çevriləcəyi qeyd edilib. Yeni tənzimləmələrin keçid prosesinin tamamlanması üçün ən çoxu 3 aylıq müddət təyin olunub.

Qeyd edək ki, Rusiya 2015-ci ildə Əsəd rejiminin tələbi ilə Suriyaya hərbi müdaxilə edərək Hmeymim və Tartusda hərbi bazalar qurmuşdu. Suriya vətəndaş müharibəsində mülki bölgələrə yönəlmiş yüzlərlə hücum bu bazalardan qalxan təyyarələr tərəfindən həyata keçirilmişdi. Əsəd rejiminin 2024-cü ilin dekabrında devrilməsindən sonra Rusiya ilə yeni Suriya hökuməti bu bazaların gələcəyi barədə danışıqlara başlamışdı.

Vurğulandığı kimi, gözləmə müddəti ərzində hər iki bazadakı mülki obyektlər Dəməşq hökumətinə təhvil veriləcək. Rusiya tərəfi isə hələlik razılaşma ilə bağlı rəsmi açıqlama verməyib. Lakin danışıqlar boyunca Hmeymim və Tartusdakı bazalar normal əməliyyat statusunu qoruyub saxlayıb.

### Suriya rəhbərliyi bazalara baş çəkib

Qeyd edək ki, avqustun 9-da Suriya xarici işlər naziri Əsəd əl-Şeybani anlaşma memorandumunda nəzərdə tutulan infrastruktur və avadanlıqları yoxlamaq üçün bu bazalara baş çəkib. Eyni zamanda, Suriya Mülki Aviasiya İdarəsinin rəhbəri Ömər əl-Həsri agentliyin Latakiya Beynəlxalq Hava Limanına nəzarəti öz üzərinə götürəcəyini açıqlayıb. Bu, əvvəllər hava limanının fəaliyyəti Rusiya hərbi mövcudluğu ilə sıx bağlı olan Hmeymim yaxınlığında yerləşən mülki obyektdir.

Həsri bildirib ki, agentliyin peşəkar qrupları bərpa planının hazırlanmasına hazırlıq məqsədilə hava limanının, onun obyektlərinin və əlaqəli sistemlərinin texniki və əməliyyat qiymətləndirməsinə başlayıblar. O, bunu Suriya hava limanlarının bərpası və istismarı, eləcə də onların milli mülki aviasiya sisteminə yenidən inteqrasiyası istiqamətində mühüm addım adlandırıb.

Vurğulanmalıdır ki, proses diplomatik yolla inkişaf edib - Suriya ilə Rusiya bundan sonra da əməkdaşlıq etməyə hazır olduğunu nümayiş etdiriblər. Prezident Əhməd əl-Şara rəsmi olaraq vəzifəyə başladığı gündən bəri iki dəfə Moskvaya səfər edib və prezident Putin ilə görüşüb. Əl-Şaranın 2026-cı ilin yanvar ayında etdiyi son səfəri zamanı prezident Putin hər iki tərəfin diplomatik münasibətlərin bərpasında əhəmiyyətli irəliləyiş əldə etdiyini təsdiqləyib.



Xatırladaq ki, Hmeymim və Tartus Suriyada Rusiyanın hərbi iştirakının əsas dayaqları olub. Hmeymim aviabazası Suriyanın Latakiya vilayətində, Latakiya şəhəri yaxınlığında yerləşir. Rusiya 2015-ci ildə Suriyadakı hərbi əməliyyatlara müdaxilə etdikdən sonra bu aerodromu əsas hava bazasına çevirib. Bu bazanın əsas funksiyalarına gəldikdə isə:

- Rusiya Hərbi-Kosmik Qüvvələrinin Suriyadakı əsas hava əməliyyat mərkəzi kimi;
- Qırıcı və bombardmançı təyyarələrin yerləşdirilməsi üçün;
- hərbi-logistika və təchizat mərkəzi kimi istifadə olunub. Bu baza Aralıq dənizinin şərq hissəsində Rusiyanın hərbi imkanlarının təmin edilməsində mühüm rol oynayıb. Eləcə də, Suriyadakı Rusiya qüvvələrinin komanda və koordinasiyasında bazanın böyük əhəmiyyəti olub. 2017-ci ildə Moskva ilə Dəməşq arasında razılaşma ilə Rusiyanın Hmeymimdəki mövcudluğunun uzunmüddətli xarakter alması nəzərdə tutulmuşdu.

### Bir-birini tamamlayan bazalar

Tartus hərbi-dəniz bazası isə Aralıq dənizi sahilində yerləşir və illərlə Rusiyanın əsas hərbi-dəniz logistika məntəqəsi kimi fəaliyyət göstərib. Onun tarixi daha qədimdir - Sovet İttifaqı 1970-ci illərdən Tartusdan istifadə edirdi.2015-ci ildən sonra Tartusun əhəmiyyəti kəskin artdı. 2017-ci il razılaşmasına əsasən Rusiya bazanı genişləndirmək və uzunmüddətli istifadə etmək hüququ əldə etmişdi. Tartus:

- Rusiya hərbi gəmilərinin yanacaq və texniki təminatını;
- Aralıq dənizindəki donanmanın logistikasını;
- Rusiya gəmilərinin təmir və təminat imkanlarını;
- Yaxın Şərq və Şimali Afrika istiqamətində Rusiya hərbi fəaliyyətinin logistikasını təmin edirdi. Bu səbəbdən Tartus Rusiyanın keçmiş SSRİ ərazisindən kənarda əsas dəniz dayaqlarından biri hesab olunurdu. Mütəxəssislərin fikrincə, bu iki baza Rusiya üçün böyük əhəmiyyət kəsb edirdi və bir-birini tamamlayırdı. Hmeymim hava qüvvələri, Tartus isə hərbi-dəniz qüvvələri və logistika üçün əvəzolunmaz bir dayanacaq idi. Bu iki baza üzərindən Rusiya Aralıq dənizinin şərqində həm hava, həm də dəniz komponentinə malik hərbi infrastruktur yaratmışdı. Bu, Moskvanın Yaxın Şərqdə, Şimali Afrikada və Aralıq dənizində geosiyasi təsir imkanlarını artırırdı.

9 avqust razılaşması isə Rusiyanın Hmeymim və Tartusdakı əvvəlki hərbi statusunu dəyişir. Yəni bu, sadəcə Rusiyanın bazaları tamamilə tərk etməsi kimi qiymətləndirilməməlidir. Rusiyanın Suriyadakı hərbi mövcudluğunun xarakteri dəyişir: əvvəlki kimi eksklüziv Rusiya hərbi bazaları əvəzinə Suriya nəzarətində və Rusiya ilə birgə istifadə olunan təlim strukturları formalaşdırılır. Bu dəyişiklik Bəşər Əsədin 2024-cü ilin dekabrında hakimiyyətdən getməsindən sonra Moskva-Dəməşq münasibətlərində baş verən ən mühüm geosiyasi dəyişikliklərdən biridir. Rusiya Əsəd dövründə əldə etdiyi hərbi mövqeləri tamamilə itirməməyə, yeni Suriya hakimiyyəti isə ölkənin suverenliyi və hərbi infrastrukturu üzərində nəzarəti bərpa etməyə çalışır.

***SADİQ***

# Hörmüz boğazından keçid necə tənzimlənəcək?

Hazırda Hörmüz boğazında yaranan vəziyyət və bununla bağlı aparılan müzakirələr ABŞ-İran müharibəsinin və dialoqunun əsas elementinə çevrilib desək, əsl həqiqəti ifadə etmiş olarıq. Son dialoq mərhələsi başlayanda ABŞ Prezidenti Donald Tramp Vaşinqton və Tehran arasında Hörmüz boğazının avqustun 4-dək açılması ilə bağlı danışıqlar aparıldığını bildirsə də, bu, baş vermədi.

Tehrandan gələn son açıqlamalar ona dəlalət edir ki, hələlik Hörmüz boğazının açılması ilə bağlı aparılan danışıqlar nəticəsiz qalıb. Ümumiyyətlə, Hörmüz boğazının gələcək statusu ilə bağlı İrandan fərqli baxış bucağı sərgilənir. Tehran o mövqedən çıxış edir ki, Hörmüz boğazı heç vaxt cari il fevralın 28-də başlayan müharibədən əvvəlki rejimdə fəaliyyət göstərməyəcək. Müharibə yeni reallıqlar yaradıb və Hörmüz boğazı vasitəsilə naviqasiya da mütləq qaydada yenilənmiş şərtlər əsasında tənzimlənməlidir.

### İran parlamenti təsdiqlədi...

İran uzun müddət idi ki, coğrafi yerləşməsini nəzərə almaqla Hörmüz boğazından keçidin tənzimlənməsinin bu ölkənin müstəsna hüququ olduğunu əsaslandırmağa çalışırdı. Təsadüfi deyildir ki, Tehran Pakistanın vasitəçiliyi ilə aparılan ABŞ-İran danışıqlarında Hörmüz boğazı ilə bağlı məsələni masaya daşımağa müvəffəq olmuşdu. Son olaraq isə Tehran keçid üzərində hüququnu qanunvericilik qaydasında təsbit edib. Belə ki, İran parlamentinin Milli Təhlükəsizlik və Xarici Siyasət Komitəsi "Hörmüz boğazı və Fars körfəzinin təhlükəsizliyini və davamlı inkişafını təmin etmək üçün strateji tədbirlər haqqında" qanun layihəsini təsdiqləyib.

Bu barədə İranın dövlət televiziyası məlumat yayıb. Sənədə əsasən, boğazın idarə olunması ilə bağlı yeni mexanizmlərin tətbiqi nəzərdə tutulur.

Qeyd edək ki, İran parlamentində müvafiq qanunla bağlı müzakirələrin aparıldığı barədə xəbərlər hələ xeyli müddət bundan əvvəl yayılmışdı. Avqustun 7-də İran parlamentinin rəyasət heyətinin üzvü Əlirza Səlimi ölkə parlamentinin ABŞ və İsraillə əlaqəli gəmilərin Hörmüz boğazından keçməsini qadağan edən qanun layihəsini nəzərdən keçirdiyini açıqlamışdı. Həmçinin İran parlamentinin digər bir üzvü Əli Babayi Karnayi də Hörmüz boğazının idarə olunması ilə bağlı üçüncü təcili kateqoriyalı qanun layihəsinin parlamentə təqdim edildiyini açıqlamışdı. Onun sözlərinə görə, qanun layihəsi qəbul edilərsə, İrana Hörmüz boğazı üzərində iqtisadi, sosial və təhlükəsizlik sahələrində daha geniş səlahiyyətlər veriləcək. Parlamentari bildirmişdi ki, sənəddə boğazla bağlı nəqliyyat axınlarının və digər fəaliyyətlərin vahid çərçivədə tənzimlənməsi, eləcə də inteqrasiya olunmuş nəzarət mexanizminin yaradılması nəzərdə tutulur.Ehtimal olunur ki, yuxarıda bəhs olunan qanun layihəsində də bu kimi müddəalar öz əksini tapıb.

Bütövlükdə, danışıqların yeni mərhələsində İran Hörmüz boğazı ilə bağlı ritorikasını daha da sərtləşdirib. Belə ki, Tehran Hörmüz boğazının açılması üçün ABŞ qarşısında bir sıra yenilənmiş şərtlərini irəli sürüb. "The Times" nəşrinin yaydığı məlumata əsasən, İranın Ali Milli Təhlükəsizlik Şurasının katibi Məhəmməd Baqer Zülqədr Vaşinqtonun siyasətini dəyişməyənədək və Tehranın irəli sürdüyü şərtləri yerinə yetirməyənədək boğazın bağlı qalacağını bildirib. Zülqədrin açıqladığı şərtlərə ABŞ-ın İran ətrafındakı hərbi qüvvələrini geri çəkməsi, İrana qarşı tətbiq olunan sanksiyaları və dəniz blokadasını aradan qaldırması, ölkənin xaricdə dondurulmuş aktivlərini azad etməsi və müharibə nəticəsində dəymiş ziyana görə kompensasiya ödəməsi daxildir.

Bundan başqa, Tehran ABŞ-dan İran və onun regiondakı müttəfiqlərinə qarşı hərbi əməliyyatları dayandırmağı, həmçinin İrana qarşı təhdid və təhqirlərə son qoymağı tələb edir. Vurğulayaq ki, İran rəsmisinin açıqlaması Hörmüz boğazının açılması ilə bağlı danışıqların davam etdiyi bir vaxtda verilib ki, bu da suallar yaratmaya bilməz.



### Omanla birgə bəyanat şübhə altında...

İran parlamentində həhs olunan qanun layihəsinin təsdiqlənməsi başqa bir məsələni də diqqət mərkəzinə gətirir. Söhbət Hörmüz boğazında digər bir sərhəd dövlətinin - Omanın hansı mövqedən çıxış edəcəyindən gedir. İran parlamentində qanun layihəsi həssas bir dönəmdə - Omanla Hörmüz boğazından gəmiçiliklə bağlı birgə bəyanatın verilməsinə hazırlıq işlərinin yekun mərhələsində olduğu bir vaxtda təsdiqlənib. İranla Oman təxminən iki ay ərzinddə Hörmüz boğazından keçidlə bağlı müzakirələr aparıblar. İki sərhəd dövlətinin dialoqu müsbət məcrada apardığı bildirilirdi. İran XİN-in rəsmi nümayəndəsi İsmail Baqai avqustin əvvəlində verdiyi açılamasında danışıqların peşəkar atmosferdə irəlilədiyini qeyd etmişdi. Onun sözlərinə görə, təklif olunan gəmiçilik marşrutunun coğrafi koordinatları artıq razılaşdırılıb və əgər üçüncü tərəflər prosesə mane olmasa, sənəd yaxın vaxtlarda hazır olacaq.

Bununla belə, Baqai vurğulayıb ki, İran və Oman arasındakı bu razılaşma hələlik Hörmüz boğazında gəmiçiliyin təhlükəsizliyinə tam zəmanət verə bilməz. Çünki boğazın bağlanmasına səbəb olan amillər, o cümlədən ABŞ-ın hərbi-dəniz blokadası, həmçinin ABŞ və İsraildən gələn davamlı təhdidlər hələ də həllini tapmayıb.

Beləliklə, aydın olur ki, İran ABŞ qoşunlarının bölgədə olmasını Omanla apardığı danışıqlarda da Hörmüz boğazının bağlı qalmasının əsas səbəbi kimi ön mövqeyə çəkir. Omanın bu mövqeni bölüşdüyü və yaxud əks arqumentlərdən çıxış edib-etməməsi barədə isə məlumat verilmir. Buna görə də Hörmüz boğazı ilə bağlı İranla Omanın birgə bəyanat verəcəlklərini bəri başdan söyləmək çətindir.

### Hörmüzdən keçidə görə rüsum alınacaqmı?

Sərhəd dövlətləri olan İran və Oman Hörmüz boğazı ilə bağlı danışıqları hansı məcrada aparırlar? Burada narahatlıq yaradan əsas məqam əldə olunacaq razılaşmada boğazdan keçid üçün rüsum ödəniməsinin nəzərdə tutulub-tutulmaması ilə bağlıdır. Bir daha xatırlatmaq istərdik ki, ABŞ və digər dünya dövlətləri Hörmüz boğazında beynəlxalq gəmiçilik üçün sərbəst keçidin təmin olunmasını istəyirlər.

"İran və Oman arasında Hörmüz boğazı ilə bağlı müzakirələrdə hələlik bu boğazdan keçidlə əlaqədar rüsumların alınması haqda danışıqlar aparılmır". Bunu İran Xarici İşlər Nazirliyinin mətbuat katibi İsmayıl Bəqai avqustun 10-da Tehranda keçirilən mətbuat konfransında deyib. "Hazırda bəlli olan odur ki, Hörmüz boğazından gəmilərin təhlükəsiz keçidinə nəzarətlə yanaşı, ətraf mühitin qorunması, dəniz xidmətlərinin göstərilməsi istiqamətində mexanizmlərin yaradılması gündəmdədir. Təbii ki, dəniz xidmətləri göstərildiyi halda, onun qarşılığında vəsaitin alınması mütləq olacaq", - deyə o qeyd edib.

### Beynəlxalq birliyin mövqeyi

Hörmüz boğazı qlobal enerji sisteminin "dar keçid" nöqtəsi, beynəlxalq daşımaların əsas arteriyalarından biri kimi səciyyələndirilir. Uzunluğu təxminən 150 kilometr olan bu boğaz bəzi yerlərdə cəmi bir neçə on kilometr enə malikdir və bu xüsusiyyət onu qlobal enerji nəqliyyatının ən həssas nöqtələrindən birinə çevirir. Müharibədən əvvəl bu boğazdan neft axını gündə orta hesabla 21 milyon barel təşkil edib. "Bloomberg" agentliyinin məlumatına görə, Hörmüz boğazında yaranan problemlərdən əsasən neft tankerləri zərər görüb. Qlobal neft və LNG daşımalarının təxminən beşdə biri bu boğaz vasitəsilə həyata keçirilirdi.

Eyni zamanda, Hörmüz boğazı ətrafında yaranan indiki vəziyyət qeyri-neft ticarətinin təxminən 2,4 faizini də risk altına alıb Körfəz dövlətləri qiymətli metallar, alüminium və sementin böyük ixracatçısı olduqlarından qlobal idxalçıların 4-7 faizi risklə üzləşir. Vəziyyət hələ də qeyri-sabitdir və təsirin miqyası Hörmüz boğazının faktiki bağlı qalma müddətindən asılı olacaq.

İslamabad danışıqları fiaskoya uğradıqdan sonra Donald Tramp Hörmüz boğazının blokadaya alınması barədə qərar verib. Buna uyğun olaraq ABŞ donanmasının gəmiləri regiona cəlb olunub.

Beynəlxalq birliyin mövqeyi isə ondan ibarətdir ki, tərəflərin Hörmüz boğazına nəzarəti mübahisələndirmələri yolverilməzdir. BMT rəsmisinin açıqlamasında bildirilib ki, münaqişənin bütün tərəfləri beynəlxalq hüquqa riayət etməli, o cümlədən Hörmüz boğazında naviqasiya azadlığını təmin etməlidirlər.

***Mübariz FEYİZLİ***

# Dünya liderliyi uğrunda mübarizə

## ABŞ, Çin və yeni qlobal sistemin gələcəyi

əvvəli ötən sayımızda

Bu strategiyanın bir neçə əsas istiqaməti mövcuddur. Birincisi, Çin beynəlxalq təşkilatlarda və çoxtərəfli platformalarda daha fəal rol almağa çalışır. Pekin BMT, Dünya Bankı, Beynəlxalq Valyuta Fondu və digər beynəlxalq strukturlarda öz təsir imkanlarını artırmağa, eyni zamanda inkişaf etməkdə olan ölkələrlə siyasi və iqtisadi əlaqələrini genişləndirməyə çalışır. İkincisi, Çin strateji texnologiyalarda xarici asılılığı azaltmaq məqsədi daşıyan siyasət həyata keçirir. Elizabeth Economynin araşdırmalarında vurğulandığı kimi, Pekin texnologiyanı yalnız iqtisadi inkişaf vasitəsi kimi deyil, həm də milli təhlükəsizliyin və dövlət gücünün əsas elementi kimi qiymətləndirir. Bu yanaşma xüsusilə yarımkeçiricilər, telekommunikasiya, süni intellekt, kosmik texnologiyalar və yüksək texnologiyalı istehsal sahələrində özünü göstərir. Çin hesab edir ki, gələcəyin beynəlxalq rəqabətində texnoloji üstünlük hərbi və iqtisadi üstünlük qədər mühüm rol oynayacaq. Üçüncüsü, Çin qlobal təsir imkanlarını iqtisadi layihələr vasitəsilə genişləndirir. “Bir kəmər, bir yol” təşəbbüsü bu strategiyanın əsas nümunələrindən biridir. Elizabeth Economy bu cür layihələri yalnız iqtisadi əməkdaşlıq kimi yox, eyni zamanda Çinin beynəlxalq mövqeyini gücləndirən geosiyasi alətlər kimi təhlil edir.

Onun yanaşmasına görə, Çinin məqsədi sadəcə daha zəngin dövlət olmaq deyil, Pekin həm də beynəlxalq sistemdə öz siyasi və institusional çəkisini artırmaq istəyir. Bu isə ABŞ və digər Qərb dövlətləri ilə strateji rəqabətin əsas səbəblərindən biridir. Economynin təhlillərində mühüm bir məqam da var: Çinin yüksəlişi avtomatik olaraq onun qlobal liderliyi ələ alacağı anlamına gəlmir. Böyük iqtisadi imkanlarla yanaşı, Çin qarşısında daxili iqtisadi problemlər, demoqrafik dəyişikliklər, xarici etimad məsələsi və digər dövlətlərlə münasibətlərin mürəkkəbləşməsi kimi çağırışlar da var. Bu baxımdan Elizabeth Economynin yanaşması Çin fenomeninə birtərəfli baxışdan uzaqdır. O, bir tərəfdən Çinin artan imkanlarını və strateji ambisiyalarını göstərir, digər tərəfdən isə Pekinin qarşısında duran məhdudiyyətləri vurğulayır. Onun əsas tezisi belə ümumiləşdirilə bilər: Çin artıq yalnız qlobal iqtisadiyyatın iştirakçısı deyil, qlobal qaydaların formalaşmasına təsir göstərmək istəyən böyük strateji aktordur. Buna görə də Çinin yüksəlişi XXI əsrin ən mühüm geosiyasi hadisələrindən biri olaraq qalır, bu, həm də ABŞ-Çin rəqabətinin gələcək istiqamətini təyin edən əsas amillərdən biridir. Yanaşmalar göstərir ki, ABŞ-Çin rəqabəti yalnız liderlik uğrunda mübarizə deyil, həm də iki fərqli inkişaf modelinin qarşılaşmasıdır. ABŞ daha çox bazar iqtisadiyyatı, özəl innovasiya və açıq texnoloji ekosistem üzərində qurulan model təqdim edir, Çin isə dövlət strategiyası, uzunmüddətli planlaşdırma və sənaye siyasəti vasitəsilə texnoloji üstünlük yaratmağa çalışır.

Rəqabətin digər mühüm istiqaməti qlobal təsir uğrunda mübarizədir. ABŞ uzun illər ərzində dünya miqyasında geniş müttəfiqlər şəbəkəsi yaradıb. NATO, Asiya-Sakit okean regionundakı tərəfdaşlıqlar, maliyyə institutları və beynəlxalq təşkilatlardakı rolu Vaşinqtonun qlobal təsir imkanlarını artırır. Çin isə daha çox iqtisadi əlaqələr və infrastruktur layihələri vasitəsilə təsir imkanlarını genişləndirir. “Bir kəmər, bir yol” təşəbbüsü bu strategiyanın ən mühüm nümunələrindən biridir. Layihənin məqsədi Asiya, Avropa və Afrikanı nəqliyyat, enerji və ticarət əlaqələri vasitəsilə birləşdirməkdir. Ancaq bu təşəbbüs ətrafında beynəlxalq münasibətlərdə fərqli fikirlər mövcuddur. Bir qrup ekspert bunu qlobal inkişaf üçün mühüm imkan kimi qiymətləndirir, digərləri hesab edirlər ki, böyük infrastruktur layihələri gələcəkdə siyasi və iqtisadi asılılıq yarada bilər. Əslində, bu mübahisə XXI əsrin əsas geosiyasi dilemmasını əks etdirir: iqtisadi əməkdaşlıq hansı həddə qədər qarşılıqlı faydalıdır, hansı nöqtədən sonra strateji təsir alətinə çevrilir?

Bu sual xüsusilə kiçik və orta dövlətlər üçün mühüm əhəmiyyət daşıyır, çünki onlar ABŞ, Çin və digər böyük güclər arasında seçim etmək məcburiyyətində qala bilər. Lakin müasir beynəlxalq sistemdə bir çox dövlət daha çevik siyasət yürütməyə, müxtəlif güc mərkəzləri ilə iqtisadi, siyasi və təhlükəsizlik əlaqələri quraraq strateji balans yaratmağa çalışır. ABŞ-Çin rəqabətinin gələcəyi böyük ölçüdə bu iki dövlətin daxili imkanlarından asılı olacaq. ABŞ texnoloji və institusional üstünlüyünü qoruyub saxlaya biləcəkmi? Çin iqtisadi yüksəlişini qlobal etimada və davamlı təsirə çevirə biləcəkmi? Bu sualların cavabı yalnız Vaşinqton və Pekinin qərarlarından asılı deyil. Dünya siyasətinin gələcək istiqaməti həm də digər dövlətlərin davranışından, beynəlxalq təşkilatların rolundan və qlobal sistemin yeni qaydalarının necə formalaşacağından asılı olacaq. XXI əsrin əsas mübarizəsi yalnız kimin daha güclü olmasına bağlı deyil, əsas məsələ dəyişən dünyada hansı dövlətlərin daha çevik, innovativ və strateji düşüncəyə malik olmasıdır.



**Çinin texnoloji sıçrayışı, ABŞ-ın narahatlığı, elektromobil inqilabı və gələcəyin sənaye müharibəsi**

ABŞ-Çin rəqabətinin ən mühüm xüsusiyyətlərindən biri ondan ibarətdir ki, bu mübarizə artıq yalnız diplomatik bəyanatlar və iqtisadi göstəricilər səviyyəsində aparılmır. Əsl rəqabət gələcəyin sənaye sahələrində - elektrik avtomobilləri, robot texnologiyaları, süni intellekt, yarımkeçiricilər və yüksək texnologiyalı istehsal sahələrində gedir. Əgər XX əsrdə sənaye gücü əsasən avtomobil, neft, polad və ağır sənaye ilə ölçülürdüsə, XXI əsrdə yeni sənaye inqilabının əsas göstəriciləri dəyişir. İndi sual yalnız “kim daha çox istehsal edir?” deyil. Əsas sual budur: kim gələcəyin istehsal sistemlərinə nəzarət edəcək? Məhz bu baxımdan Pekinin son illər əldə etdiyi irəliləyiş ABŞ və digər Qərb dövlətlərində ciddi strateji narahatlıq yaradıb. Çinin elektromobil sənayesində yüksəlişi bunun aydın nümunələrindən biridir. Uzun illər dünya avtomobil sənayesində liderlik ABŞ, Almaniya, Yaponiya və Cənubi Koreya kimi ölkələrin əlindəydi, General Motors, Ford, Volkswagen, Toyota və digər nəhəng şirkətlər qlobal avtomobil bazarının əsas oyunçuları hesab olunurdu. Lakin son onillikdə Çin bu sahədə gözlənilməz sürətlə irəliləyib elektromobil bazarında dünyanın ən güclü istehsal mərkəzinə çevrildi.

Beynəlxalq Enerji Agentliyinin (International Energy Agency - IEA) məlumatlarına görə, Çin dünyanın ən böyük elektrik avtomobil bazarına malikdir və qlobal elektromobil satışlarının böyük hissəsi məhz Çin bazarının payına düşür. Bu ölkə həm elektrik avtomobillərinin istehsalında, həm də batareya texnologiyalarında lider mövqeyə yüksəlib. Çin şirkəti BYD bu dəyişimin simvollarından birinə çevrilib. Uzun müddət “Tesla” elektromobil bazarının lideri sayılırdı, lakin BYD qısa müddət ərzində istehsal gücü, qiymət siyasəti və texnoloji imkanları hesabına “Tesla” ilə birbaşa rəqabət aparan şirkətə çevrildi. Bu proses yalnız avtomobil sənayesində dəyişiklik yaratmır; əslində, elektromobil inqilabı enerji, logistika, süni intellekt, proqram təminatı və sənaye avtomatlaşdırılması sahələrinin birləşməsini tələb edir. Başqa sözlə, gələcəyin avtomobili sadəcə nəqliyyat vasitəsi deyil, böyük həcmdə proqram təminatı və rəqəmsal texnologiya daşıyan platformadır. Məhz burada ABŞ və Çin arasındakı rəqabətin mahiyyəti ortaya çıxır. Əgər Çin elektrik avtomobillərində və batareya istehsalında üstünlük qazanarsa, bu, yalnız kommersiya uğuru anlamına gəlmir - bu, gələcək sənaye standartlarının kim tərəfindən müəyyən ediləcəyi məsələsidir. ABŞ və Avropa dövlətlərinin narahatlığı da əsasən bundan qaynaqlanır, onlar hesab edir ki, Çin şirkətlərinin ucuz və yüksək texnologiyalı məhsullarla dünya bazarlarına sürətli çıxışı yerli sənayelərə ciddi təzyiq göstərə bilər.

Avropa İttifaqı 2024-cü ildə Çindən idxal olunan elektrik avtomobillərinə əlavə gömrük rüsumları tətbiq etdi. Avropa Komissiyası bu qərarı Çin istehsalçılarına verilən dövlət subsidiyalarının Avropa avtomobil sənayesinə yaratdığı rəqabət təhrifləri ilə əsaslandırdı. ABŞ da Çin texnologiyalarına münasibətdə daha sərt siyasət yürüdür, Vaşinqton xüsusilə strateji texnologiyalarda Çin təsirinin artmasından narahatdır. Narahatlıq yalnız avtomobillərlə məhdudlaşmır. Robot texnologiyaları gələcək sənaye rəqabətinin digər mühüm istiqamətidir. İkiayaqlı humanoid robotlar artıq elmi fantastika mövzusu olmaqdan çıxaraq real sənaye layihələrinə çevrilir. Çin şirkətləri bu sahəyə böyük investisiyalar yatırır və humanoid robotların istehsalatda, logistika sahəsində və xidmət sektorunda istifadəsini genişləndirməyə çalışır. Çinin “Unitree Robotics” kimi şirkətləri ikiayaqlı robotların inkişafında mühüm addımlar atır. Bu texnologiyalar gələcəkdə zavodlarda insan əməyinin müəyyən hissəsini əvəz edə, təhlükəli işlərdə istifadə oluna və yeni sənaye modelinin əsas elementlərindən birinə çevrilə bilər. ABŞ isə bu sahədə Çinlə texnoloji rəqabəti milli təhlükəsizlik məsələsi kimi qiymətləndirir. Vaşinqtonun əsas narahatlığı ondan ibarətdir ki, robot texnologiyaları, süni intellekt və məlumat infrastrukturu bir ölkənin əlində cəmləşərsə, həmin ölkə gələcəyin sənaye sistemində strateji üstünlük qazana bilər.

Bu səbəbdən ABŞ son illər Çin texnologiyalarına qarşı müxtəlif məhdudlaşdırıcı tədbirlər həyata keçirir. Yüksək texnologiyaların ixracına nəzarət, bəzi Çin şirkətlərinə qarşı sanksiyalar və kritik infrastrukturda Çin texnologiyalarının istifadəsi ilə bağlı məhdudiyyətlər bu siyasətin tərkib hissəsidir. Fəqət burada daha böyük sual yaranır: əgər Çin elektromobil, robot texnologiyası və istehsal sahəsində sürətlə irəliləyirsə, bu, ABŞ üçün yalnız iqtisadi rəqabətdirmi, yoxsa qlobal liderlik məsələsidir? Cavab getdikcə özünü daha aydın göstərir: bu, artıq sadəcə bazar uğrunda yox, gələcəyin iqtisadi modelinin kim tərəfindən müəyyən ediləcəyi uğrunda mübarizədir.

Çin uzun illər “dünyanın fabriki” kimi tanınıb, ancaq artıq Pekinin strategiyası yalnız ucuz istehsal üzərində qurulmur. Çin “Made in China” modelindən “Created in China” modelinə keçmək istəyir. Yəni məqsəd yalnız dünyanın istehsal mərkəzi olmaq deyil, həm də texnologiya yaradan ölkəyə çevrilməkdir. Bu strategiyanın nəticələri artıq görünür: Çin dünyanın ən böyük elektromobil istehsalçılarından biridir, batareya istehsalında dominant mövqeyə malikdir. Günəş enerjisi panelləri, dronlar, telekommunikasiya avadanlıqları və bir sıra yüksək texnologiya sahələrində Çin şirkətləri qlobal bazarlarda ciddi mövqe tutur.

**Bu vəziyyət ABŞ və Qərb üçün tarixi xəbərdarlıqdır**

Çünki XX əsrdə sənaye liderliyi əsasən Qərbin əlindəydi, XXI əsrdə isə inkişaf etməkdə olan bir ölkə ilk dəfə yalnız istehsal gücü ilə yox, texnoloji innovasiya sahəsində də Qərb liderlərinə real rəqabət yaradır. Dəyişən iqtisadi reallıqları izah edən mühüm nəzəri yanaşmalardan biri Harvard Universitetinin professoru Dani Rodrikin araşdırmalarında öz əksini tapır. Dani Rodrik müasir siyasi iqtisad sahəsində dünyanın tanınmış alimlərindən biridir. O, Harvard Universitetinin John F. Kennedy School of Government məktəbində Ford Foundation International Political Economy professoru, eyni zamanda National Bureau of Economic Research (NBER) elmi əməkdaşıdır. Rodrik qloballaşma, iqtisadi inkişaf, beynəlxalq ticarət və dövlətlərin sənaye siyasəti sahəsində apardığı tədqiqatlarla beynəlxalq akademik dairələrdə yaxşı tanınır.

Rodrikin əsas tezisi ondan ibarətdir ki, XXI əsrdə qlobal iqtisadi rəqabət artıq yalnız sərbəst bazar mexanizmləri ilə müəyyən olunmur. Müasir dövrdə dövlətlərin hansı texnologiyalara, hansı sənaye sahələrinə və hansı strateji istiqamətlərə investisiya yönəltməsi onların gələcək iqtisadi gücünü müəyyən edən əsas amillərdən birinə çevrilir. Alimin yanaşmasına görə, son onilliklərdə Çin kimi dövlətlərin yüksəlişi göstərdi ki, uzunmüddətli sənaye strategiyası, dövlət planlaşdırması və məqsədyönlü investisiya siyasəti ölkələrə qlobal rəqabətdə mühüm üstünlüklər qazandıra bilər. Çin yalnız ucuz istehsal mərkəzi kimi qalmaqla kifayətlənmədi; dövlət proqramları vasitəsilə yüksək texnologiyalı istehsala, elektromobil sənayesinə, batareya texnologiyalarına, robotlaşdırmaya və qabaqcıl sənaye sahələrinə böyük resurslar yönəltdi.

Məhz bu səbəbdən ABŞ və Avropa ölkələri son illər sənaye siyasətinə yenidən diqqət yetirməyə başlayıb. Uzun müddət iqtisadi nəzəriyyədə dövlətin iqtisadi proseslərə məhdud müdaxiləsi üstün yanaşma hesab edilirdi. Lakin Çin modelinin sürətli inkişafı göstərdi ki, strateji sahələrə dövlət dəstəyi, elmi tədqiqatlara investisiya və milli istehsal imkanlarının qorunması qlobal rəqabətdə mühüm rol oynaya bilər. Rodrik hesab edir ki, gələcəyin iqtisadi liderliyi yalnız böyük bazara və maliyyə imkanlarına sahib olmaqla qazanılmayacaq, əsas üstünlük hansı dövlətlərin yeni sənaye inqilabının istiqamətlərini əvvəlcədən müəyyənləşdirə bilməsi, innovasiya yaratması və insan kapitalını inkişaf etdirməsi ilə bağlı olacaq. Bu yanaşma ABŞ-Çin rəqabətinin mahiyyətini daha aydın göstərir. Əsl mübarizə yalnız bugünkü iqtisadi göstəricilər uğrunda aparılmır, əsas yarış gələcəyin iqtisadi sistemini kimin formalaşdıracağı uğrundadır. Elektromobil, yarımkeçirici, robot texnologiyaları, süni intellekt və yüksək texnologiyalı istehsal sahələrində üstünlük qazanan dövlət XXI əsrin iqtisadi xəritəsində daha güclü mövqeyə yiyələnəcək. Rodrikin təhlilləri mühüm bir nəticəyə gətirir: qlobal rəqabət dövründə dövlətlərin əsas vəzifəsi yalnız mövcud iqtisadi üstünlükləri qorumaq deyil, gələcəyin iqtisadi imkanlarını əvvəlcədən yaratmaqdır. ABŞ-Çin qarşıdurması da əslində iki ölkə arasında sadə ticarət mübahisəsi deyil, XXI əsrin sənaye modelinin, texnoloji üstünlüyünün və iqtisadi liderliyinin kim tərəfindən müəyyənləşdiriləcəyi uğrunda uzunmüddətli mübarizədir.

Bu baxımdan Çin modeli Qərb ölkələri üçün mühüm sual yaradır: dövlət tərəfindən uzunmüddətli sənaye strategiyası həyata keçirən ölkə qlobal texnoloji yarışda üstünlük qazana bilərmi? ABŞ-ın cavabı son illər dəyişməyə başlayıb: Vaşinqton artıq yalnız bazar mexanizmlərinə güvənmir, “CHIPS and Science Act” kimi proqramlarla yarımkeçirici istehsalını ölkə daxilində gücləndirməyə və kritik texnologiyalarda asılılığı azaltmağa çalışır. Beləliklə, dünya yeni bir sənaye rəqabəti mərhələsinə daxil olur. Bu dəfə mübarizə neft yataqları və xammal uğrunda yox, gələcəyin zavodları, robotları, batareyaları, çipləri və texnologiyaları uğrundadır. Ən böyük sual isə budur: əgər XXI əsrin sənaye xəritəsini Çin formalaşdırmağa başlayarsa, ABŞ, bütövlükdə Qərb bu yeni reallığa uyğunlaşa biləcəkmi? Tarix göstərir ki, böyük dövlət çox vaxt rəqiblərinin güclənməsindən deyil, dəyişən dünyanın sürətinə uyğunlaşa bilməməkdən zəifləyir. Yeni dünya nizamında liderlik artıq yalnız gücə sahib olmaqla qorunmur, liderlik daim yenilənmə, innovasiya və gələcəyin texnologiyalarını müəyyənləşdirmə qabiliyyəti tələb edir. Çin bu yarışa çox ciddi hazırlaşır. Bu fakt XXI əsrin ən böyük geosiyasi suallarından birini ortaya qoyur: gələcəyin dünyasını kim quracaq - mövcud liderliyini qorumağa çalışan ABŞ, yoxsa yeni texnoloji gücə çevrilməyə çalışan Çin?



***Kəramət QƏNBƏROV,***
***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının “Dövlət qulluğu və kadr siyasəti” kafedrasının müəllimi, beynəlxalq hüquq üzrə ekspert***

YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Spark Press" MMC - 0503548555
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**



# Sosial şəbəkələrdə reklam tələsi...

## Həqiqəti saxtadan necə ayırmalı?

Rəqəmsal texnologiyanın sürətlə inkişaf etdiyi, insanların gündəlik həyatının ayrılmaz hissəsinə çevrilən sosial şəbəkələr təkcə ünsiyyət vasitəsi deyil, həm də böyük ticarət meydanına çevrilib. İstifadəçilər hər gün yüzlərlə reklam mesajı ilə qarşılaşır.




Bu reklamların bir qismi həqiqətən keyfiyyətli məhsul və xidmətləri tanıdır. Ancaq bəzi hallarda reklamlar aldadıcı və qeyri-dəqiq məlumatlar vasitəsilə maddi qazanc əldə etmək məqsədi daşıdığı üçün onların hansına inanmaq, hansına ehtiyatla yanaşmaq məsələsi cəmiyyət üçün getdikcə daha aktual mövzuya çevrilir.

Sosial şəbəkələrdə yayımlanan reklamların ən mühüm xüsusiyyətlərindən biri onların ənənəvi televiziya və ya qəzet reklamlarından fərqli olaraq konkret auditoriyaya yönəlməsi, istifadəçinin maraq dairəsi, axtarış tarixçəsi, yaşadığı ərazi, yaşı və hətta gündəlik davranışları nəzərə alınmaqla qarşısına çıxarılmasıdır. Bu da reklamın inandırıcılıq səviyyəsini artırmaqla yanaşı, istifadəçidə həmin məhsulun məhz onun üçün yaradıldığı təəssüratını formalaşdırır və nəticədə tənqidi düşüncə ikinci plana keçir.

Bu günlərdə sosial şəbəkələrdə və müxtəlif mesajlaşma platformalarında özəlləşdirmə çekləri ilə bağlı guya kompensasiya ödənilməsi, qeydiyyatın aparılması və bunun üçün müəyyən mobil nömrələrlə əlaqə saxlanılmasının tələb edildiyi barədə məlumatlar yayılıb. Daxili İşlər Nazirliyi və Medianın İnkişafı Agentliyinin birgə məlumatında bu barədə bildirilib ki, həmin məlumatlar həqiqəti əks etdirmir. Qeyd olunub ki, sözügedən məlumatlar saxtadır və vətəndaşlarda çaşqınlıq yaratmağa yönəlib.

Vətəndaşlara belə saxta elanlara etibar etməmək, naməlum telefon nömrələri ilə əlaqə saxlamamaq, bank kartı rekvizitlərini, şəxsiyyət vəsiqəsi məlumatlarını, SMS-lə göndərilən təsdiq kodlarını və digər şəxsi-maliyyə məlumatlarını heç bir halda qarşı tərəfə təqdim etməmək, eləcə də hər hansı ödəniş həyata keçirməmək tövsiyə olunub.

### Reklamların psixoloji oyunları

Rəqəmsal marketinq üzrə ekspert Elçin Nuriyev "Yeni Azərbaycan"a açıqlamasında bildirib ki, sosial şəbəkələrdə rast gələn hər endirim, hər möhtəşəm kampaniya və ya qısa müddət ərzində inanılmaz nəticə vəd edən reklam gerçəkliyi əks etdirməyə bilər. Onun sözlərinə görə, adətən marketinq strategiyalarında psixoloji təsir üsullarından geniş istifadə olunur: "Reklamlarda "yalnız bu gün", "son şans", "minlərlə insan artıq seçdi", "100 faiz zəmanət" kimi ifadələr insanların qərar vermə prosesini sürətləndirmək, onları düşünmədən alış-veriş etməyə sövq etmək məqsədi daşıyır. Xüsusilə, bəzi kosmetik vasitələr, arıqlama məhsulları, tibbi preparatlar, investisiya platformaları, onlayn qazanc layihələri və müxtəlif texnoloji cihazlarla bağlı yayılan reklamlarda qeyri-real vədlər verilir. Eyni zamanda saxta istifadəçi rəylərinin paylaşılması, peşəkar şəkildə hazırlanmış foto və videolar vasitəsilə məhsulun imkanlarının şişirdilməsi, bəzən isə tanınmış şəxslərin icazəsiz şəkillərindən və ya süni intellekt vasitəsilə hazırlanmış görüntülərdən istifadə edilməsi istehlakçıların aldanma riskini əhəmiyyətli dərəcədə artırır".

### Etibarlı reklamı necə tanımaq olar?

E.Nuriyev qeyd edib ki, reklamın etibarlı olub-olmadığını müəyyənləşdirmək üçün ilk növbədə həmin məhsulu və ya xidməti təqdim edən şirkətin fəaliyyət tarixçəsini araşdırmaq, rəsmi internet səhifəsinin və əlaqə vasitələrinin mövcudluğunu yoxlamaq, məhsul haqqında müxtəlif mənbələrdən məlumat toplamaq lazımdır: "Xüsusilə, yalnız əvvəlcədən ödəniş tələb edən, lakin hüquqi ünvanı və ya məsuliyyət daşıyan qurumu məlum olmayan satıcılara qarşı ehtiyatlı davranmaq olduqca vacib hesab edilir. Bununla yanaşı, sosial şəbəkələrdə böyük izləyici kütləsinə malik olan şəxslərin reklam etdiyi hər məhsulun keyfiyyətli və etibarlı olduğunu düşünmək də düzgün yanaşma deyil. Çünki bir çox hallarda influenserlər reklam müqavilələri əsasında ödəniş qarşılığında məhsulu təqdim edir və onların şəxsi təcrübəsi ilə reklam məzmunu arasında ciddi fərqlər ola bilir. Bu səbəbdən yalnız tanınmış simanın tövsiyəsinə əsaslanaraq qərar vermək istehlakçı üçün risk yarada bilər".

### Həqiqətlə manipulyasiya bir arada..

Ekspertin fikrincə, sosial şəbəkələrdə yerləşdirilən bütün reklamları saxta hesab etmək düzgün olmadığı kimi, onların hamısını etibarlı qəbul etmək də ciddi səhv olardı: "Çünki rəqəmsal mühitdə doğru məlumatla manipulyasiya, keyfiyyətli məhsulla saxta vəd, real fürsətlə aldatma cəhdi bəzən eyni platformada yanaşı mövcud olur. Məhz buna görə də müasir istifadəçinin ən güclü müdafiə vasitəsi diqqət, məlumatlılıq, araşdırma aparmaq bacarığı və tənqidi düşüncədir".

### Blogerlərin gizli reklam oyunu

Son dövrlər sosial şəbəkələrdə blogerlər və influenserlərin rəsmi müqavilə olmadan, "tövsiyə" adı altında gizli reklamlar yayımlaması da müzakirə mövzusuna çevrilib. Mövzunun hüquqi tərəfi ilə bağlı Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyindən bildirilib ki, "Reklam haqqında" Azərbaycan Respublikasının Qanunu rəqəmsal platformalarda yayımlananlar da daxil olmaqla, reklam fəaliyyətinin bütün istiqamətlərini tənzimləyir:

"Qanunvericiliyin əsas tələbinə görə, reklam istehlakçını aldatmamalı, onda çaşqınlıq yaratmamalı və vətəndaşın dürüst məlumatlar əsasında seçim etməsinə şərait yaratmalıdır.

Qanuna əsasən, maddi qazanc qarşılığında öz nüfuzundan istifadə edərək rəqəmsal platformalarda reklam fəaliyyəti göstərən fiziki və ya hüquqi şəxslər "rəqəmsal platforma təsirçisi" (influenser) hesab olunur. Onların fəaliyyəti ilə bağlı qaydalar belə müəyyənləşdirilib.

İnfluenserlər tərəfindən həyata keçirilən hər bir reklam yayımı mütləq şəkildə "reklam", "reklam hüququ əsasında", "sponsorluq" və ya "tərəfdaşlıq" qeydi ilə müşayiət olunmalıdır. Reklam yayımlanarkən reklamverən barədə qanunla müəyyən edilmiş məlumatlar (adı, VÖEN-i, fəaliyyət və əlaqə məlumatları) mütləq təqdim edilməlidir. Rəqəmsal platforma təsirçisinin özünün istehlak etmədiyi məhsulu (əmtəəni) istehlak etməsi barədə yanlış təsəvvür yaratması, habelə reklam olunan əmtəə haqqında müsbət rəy formalaşdırmaq məqsədilə saxta (feyk) hesablar açması qəti qadağandır".

### Nəzarət necə həyata keçirilir?

Agentlikdən bildirilib ki, Dövlət Agentliyi tərəfindən rəqəmsal platformalarda yayımlanan reklamlar mütəmadi olaraq monitorinq edilir: "Bununla yanaşı, vətəndaş müraciətləri və daxil olan digər məlumatlar əsasında reklam qanunvericiliyinin tələblərinə əməl olunması ilə bağlı araşdırmalar aparılır. Hər hansı bir pozuntu aşkarlandıqda müvafiq tədbirlər görülür.

Qurum rəqəmsal məkanda gizli reklam və qanun pozuntusu faktları ilə qarşılaşan vətəndaşlara müraciət edərək bildirib ki, konkret hallar üzrə məlumatlar Agentliyə təqdim edildiyi təqdirdə məsələ aidiyyəti üzrə araşdırıla bilər".

***Yeganə BAYRAMOVA***

# Altsheymer və depressiya riskini azaltmaq üçün...

Hamiləlik dövründən başlayaraq uşağın iki yaşı tamam olanadək ilk 1000 gün ərzində şəkər qəbulunun məhdudlaşdırılması gələcəkdə Altsheymer xəstəliyi, demensiya, depressiya və təşviş pozuntularının inkişaf riskini əhəmiyyətli dərəcədə azalda bilər.



Alimlər "npj Aging" jurnalında dərc olunmuş araşdırmada bu nəticəyə gəliblər.

Tədqiqatçılar 1951-1956-cı illərdə anadan olmuş "UK Biobank" layihəsinin 60 min 394 iştirakçısının məlumatlarını təhlil edərək, həyatının ilk 1000 günü şəkər istehlakının məhdudlaşdırıldığı dövrə təsadüf edən şəxslərin sağlamlıq göstəricilərini bu məhdudiyyətlər ləğv edildikdən sonra doğulan insanların göstəriciləri ilə müqayisə ediblər.

Araşdırma göstərib ki, erkən yaşlarında daha az şəkər qəbul edən şəxslərdə demensiya riski 27 faiz, Altsheymer xəstəliyi riski 46 faiz, depressiya riski 11 faiz, təşviş pozuntularının inkişaf riski isə 20 faiz aşağı olub. Eyni zamanda, ən nəzərəçarpan müsbət təsir doğulduqdan sonra da şəkər qəbulu məhdud saxlanılan uşaqlarda müşahidə edilib. Yalnız ana bətnində inkişaf dövründə şəkər qəbulunun məhdudlaşdırılması isə sonrakı illərdə beyin sağlamlığına demək olar ki, təsir göstərməyib.

Maqnit-rezonans tomoqrafiyasının nəticələri də göstərib ki, bu qrupun beyni daha yavaş qocalıb. Belə ki, onların beyninin bioloji yaşı orta hesabla pasport yaşından 0,39 il az olub. Bundan əlavə, həmin şəxslərdə yaddaş və idrak funksiyalarında mühüm rol oynayan hipokamp və talamusun həcmi daha böyük olub. Tədqiqatın müəllifləri vurğulayırlar ki, bu araşdırma səbəb-nəticə əlaqəsini tam sübut etmir. Bununla belə, əldə olunan nəticələr göstərir ki, həyatın ilk illərində şəkərin qəbulunun məhdudlaşdırılması beynin uzunmüddətli qorunmasına töhfə verən amillərdən biri ola bilər.



# Antarktida buzlaqları civə mənbəyinə çevrilir

Son iki əsr ərzində Antarktida buzlaqlarında toplanmış civənin Cənub okeanına daxil olması buzlaqların əriməsi səbəbindən əhəmiyyətli dərəcədə artıb.

AZƏRTAC xəbər verir ki, "Proceedings of the National Academy of Sciences" (PNAS) jurnalında dərc olunmuş tədqiqatın müəllifləri bu nəticəyə gəliblər.

Tədqiqatçılar Antarktida yarımadası sahillərindəki dib çöküntülərini araşdırıblar. Bu bölgə buzlaqların ən sürətlə əridiyi ərazilərdən biridir. Məlum olub ki, sənaye dövrünün başlanğıcından etibarən burada civənin toplanma sürəti 160 faiz artıb və Antarktida zəhərli metalın saxlandığı məkan olmaqdan çıxaraq onun yeni mənbəyinə çevrilməyə başlayıb. İqlim dəyişikliyi nəticəsində buzlaqlar civəni sərbəst buraxır, daha sonra isə bu, okeana qarışır.

Hesablamalar göstərib ki, buzlaqların əriməsi nəticəsində qurudan okeana daxil olan civənin həcmi 550 faiz, okeanla atmosfer arasında civə mübadiləsinin intensivliyi isə 350 faiz artıb. Bundan əlavə, okean cərəyanları vasitəsilə çirklənmənin daşınması təxminən 400 faiz yüksəlib ki, bu da civənin Antarktidadan xeyli uzaq ərazilərə yayılması riskini artırır.

Tədqiqatın müəllifləri xəbərdarlıq edirlər ki, bu proses dəniz ekosistemlərinə ciddi təsir göstərə bilər. Bakteriyaların təsiri altında civə yüksək toksikliyə malik metilcivəyə çevrilir və qida zəncirində mikroyosunlar və krildən başlayaraq balıqlara, daha sonra isə iri yırtıcılara qədər tədricən toplanır. Alimlərin sözlərinə görə, Antarktidada yaşayan bəzi balıq və köpəkbalığı növlərində civənin konsentrasiyası artıq əvvəlki rekord göstəriciləri və təhlükəsizlik üzrə yol verilən hədləri üstələyib.

Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4486**
**Sifariş: 1041**
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova